

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## NAXÇIVAN: dəfələrlə soyqırımına məruz qalan qədim torpaq



4

# Qələbə Zəfərinin yaratdığı yeni idarəetmə modeli



2

*PREZİDENT İLHAM ƏLİYEV: "Yeni idarəetmə modeli ölkəmizin bütün digər hissələrində də tətbiq edilməlidir"*

SƏS

№ 055 (6738)

1 aprel 2023-cü il.
Qiymәti 60 qәpik

# Qlobal su böhranına hazırlıq üçün son anda atılmış addım

***Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin imzaladığı "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" fərmanda Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti əmlakları ilə birlikdə Agentliyin tabeliyinə verilib. Dövlət başçısının sərəncamı ilə, bunadək Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri vəzifəsində işləyən Zaur Rauf oğlu Mikayılov yeni yaradılan Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri təyin edilib.***



7

## VoMa terror qruplaşması: azyaşlı erməni uşaqları qatil kimi yetişdirilir!



8

## Başlıbel qətliamı



13

## Qarabağın mərdlik qalası – Laçın




15

## Baydenin sammiti və demokratiya




6

## Kirayə evə baxmaq pullu oldu?



16

# Qələbə Zəfərinin yaratdığı yeni idarəetmə modeli

## PREZİDENT İLHAM ƏLİYEV: "Yeni idarəetmə modeli ölkəmizin bütün digər hissələrində də tətbiq edilməlidir"



*Azərbaycan Prezidenti İlham Əliyev martın 28-də Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən Prezident İlham Əliyev yeni idarəetmə modelinin tətbiq olunacağının mesajını verib. Bu barədə dövlət başçısı martın 28-də Laçına yeni təyin etdiyi xüsusi ...yeni idarəetmə modelinin ölkəmizin bütün digər hissələrində də tətbiq edilməsini deyib: "Yenə də deyirəm, dövlət öz üzərinə düşən vəzifəni icra edir.*

Demək olar ki, indi bu təyinatdan sonra azad edilmiş əksər rayonlarda mənim xüsusi nümayəndələrim artıq fəaliyyətə başlayacaqdır. Hələ təkcə Kəlbəcər rayonunda təyin edilməyib, bu da olacaq. Bu ərazilərdə, eyni zamanda, yeni idarəetmə üsulu da tətbiq edilməlidir və edilir. Gələcəkdə bu, yeni idarəetmə modeli kimi ölkəmizin bütün digər hissələrində də tətbiq edilməlidir. Yəni, bu, həm böyük quruculuq işləridir, həm də yeni idarəetmə üsuludur. Əminəm ki, bu, təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcəkdir. Bax, mənim tapşırıqlarım bundan ibarətdir, siz mənim etimadımı doğrultmalısınız".

### ZAMANIN TƏLƏBİ, SOSİAL SİFARİŞ

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsindəki qələbə Zəfəri yenilməz Azərbaycan Ordusu Ermənistanın 30 illik işğalına 44 gündə son qoyduqdan dərhal sonra həmin ərazilərdə yenidənqurma, tikinti-abadlıq işlərinə start verildi. Qələbədən bir həftə sonra Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərə səfərləri və tikinti-bərpa işlərinin təməlqoyma mərasimində şəxsən iştirak etmələri dünyaya bir daha bəyan etdi ki, "Qarabağ Azərbaycandır!". Və bu qələbə Zəfəri regionda yeni reallıqların formalaşması ilə yanaşı, eyni zamanda ölkəmizin ictimai-siyasi həyatında, o baxımdan idarəetmə sistemində də mühüm dəyişikliklərin tədbiqinə real zəmin yaratdı. Məhz 2021-ci il yanvarın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında" Fərman da zamanın tələbi olaraq mühüm, tarixi sənəddir. Fərmana əsasən, işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası prezidentinin xüsusi nümayəndəlikləri təsis edilib. Prezidentin xüsusi nümayəndəliklərinə Prezident tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Prezidentə tabe olan xüsusi nümayəndələr rəhbərlik edəcəklər. Fərmana əsasən müəyyən edilib ki, xüsusi nümayəndə Prezidentin müəyyən etdiyi ərazi hüdudlarında Prezidenti təmsil edən vəzifəli şəxsdir və Prezidentin müəyyən etdiyi ərazi hüdudlarında onun müəyyən etdiyi səlahiyyətləri həyata keçirir.

### YENİ İDARƏETMƏ MODELİ İLK DƏFƏ ŞUŞADA TƏTBİQ EDİLİB

Azərbaycan Prezidenti İlham Əliyev hələ əvvəlki çıxışlarında bu mövzu ilə bağlı danışarkən bildirmişdi ki, işğaldan azad edilmiş bölgələrdə elə idarəetmə forması tətbiq ediləcək ki, o gələcəkdə digər ərazilərimiz üçün də model təşkil etsin.Və bu baxımdan da Şuşaya Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi əslində həm də ölkəmizdə yeni idarəetmə institutunun yaradılması kimi qiymətləndirilə bilər. Prezident İlham Əliyev Şuşaya xüsusi nümayəndəsini təyin edərkən onun qarşısında mühüm vəzifələr qoydu və tapşırıqlarını verdi. Bu, hər şeydən öncə Şuşa şəhərinin tarixi görkəminin, tarixi mədəni və dini abidələrimizin bərpa olunması, ənənəvi festivallarımızın və poeziya günlərimizin keçirilməsi, Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş şəhərimizin bütün infrastrukturunun modern əsaslarda yenidən qurulması və s. kimi mühüm işlərlə bağlı idi.

Eyni zamanda onu da vurğulamaq lazımdır ki, dövlət başçısının ölkəmizdə Prezidentin xüsusi nümayəndəsini ilk olaraq Şuşa rayonuna təyin etməsi də təsadüfi deyil. Qədim şəhər olan Şuşaya xalqımızı güclü mənəvi tellər bağlayır. Bu şəhər mədəniyyət paytaxtımızdır, bütövlükdə Azərbaycanın simvoludur. Prezident İlham Əliyev Şuşanın bərpasına çox həssaslıqla yanaşır və xüsusi nümayəndənin Onun tapşırıqlarını yüksək səviyyədə yerinə yetirəcəyinə əminliyini bildirib. Şuşa rayonundan sonra xüsusi nümayəndəlik institutu Qarabağ iqtisadi rayonunda tətbiq edildi. Prezident İlham Əliyev 1 dekabr 2021-ci il tarixində imzaladığı Sərəncamla Emin Zamin oğlu Hüseynov "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə müəyyən edilmiş Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi təyin edilib.

Daha bir belə təyinat 2022-ci il dekabrın son ongünlüyündə Azərbaycanın ayrılmaz hissəsi olan Naxşıvan Muxtar Respublikasında reallaşdı. Dövlətimizin başçısı dekabrın 22-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi vəzifəsinə təyin olunmuş Fuad Nəcəflini qəbul edib və ona müvafiq tapşırıqlarını verib.Və bu günlərdə - 2023-cü ilin martın 28-də Azərbaycan Prezidenti İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən Prezident İlham Əliyev yeni idarəetmə modelinin tətbiq olunacağının mesajını verib.

Onu da qeyd edək ki, dövlət başçısı vəzifələrə təyin etdiyi kadrları şəxsən qəbul edir və onlara ictimaiyyət qarşısında tapşırıqlarını verir. Qarşıya qoyulan tələblər belədir: Kadrlar düzgün işləməli, əliəyriliyə yol verməməlidirlər. Biz indiyədək bir sıra hallarda bəzi məmurların yerlərdə özlərini, necə deyərlər, kiçik padşahlar kimi apardıqlarının şahidi olmuşuq. Mənəvi cəhətdən çox kasıb olan belə məmurlar insanları incidirlər, onlara yuxarıdan aşağı baxırlar. Kim onlara bu hüququ verib? Nə üçün dövlət başçısının şəxsi nümunəsi, insanlarla səmimiliyi, ehtiyacı olanlara qayğı göstərməsi bəzi məmurlara nümunə olmamalıdır? Məmurun kabinetə qapanmaq dövrü artıq keçmişdir. Kadrlar Prezidentin etimadının, onlara həvalə olunan vəzifələrin məsuliyyətini bütün miqyası ilə dəyərləndirməli və daim inkişafı, mütərəqqi yenilikləri hədəfləyən təşəbbüslər irəli sürməlidirlər.Bir sözlə, bütün bunlar Azərbaycan vətəndaşlarının dövlət hakimiyyəti orqanlarına, onun yerli strukturlarına, parlamentə etimadını, inamını artıracaq. Və müasir dövrdə idarəetmə sahəsində islahatların aparılması zəruridir və bu baxımdan, dövlət başçısının atdığı addımlar böyük əhəmiyyət kəsb edir. Azərbaycan Prezidentinin dediyi kimi: "Yeni idarəetmə modeli ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcək".

**RƏFİQƏ KAMALQIZI**

## Netanyahu: "İsrail Azərbaycan ilə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlıdır"




Martın 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İsrail Dövlətinə rəsmi səfəri çərçivəsində Baş nazir Binyamin Netanyahu tərəfindən qəbul edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Baş nazir Binyamin Netanyahu, ilk növbədə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə salamlarını çatdırmağı xahiş edib. O, Azərbaycana səfərlərini məmnunluqla xatırlayıb, Azərbaycanın İsraildə səfirliyinin açılması münasibətilə təbriklərini çatdırıb. Baş nazir İsrailin Azərbaycan ilə əməkdaşlığın daha da inkişaf etdirilməsində maraqlı olduğunu bildirib.

Nazir Ceyhun Bayramov ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün qeyd edildiyini məmnunluqla xatırlayıb və Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin təsis edilməsinin münasibətlərin yeni mərhələyə qədəm qoyduğunun nümunəsi olduğunu vurğulayıb.

Görüş zamanı, həmçinin Azərbaycan və İsrail arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsi, münasibətlərin inkişaf perspektivləri, təhlükəsizlik, iqtisadi əlaqələr və digər sahələrdə əməkdaşlığın müxtəlif aspektləri müzakirə olunub.



# HEYDƏR ƏLİYEV STRATEGİYASI: "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!"

***Bəli, bu gün ulu öndərin layiqli davamçısı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu vəsiyyətini reallaşdırdı. Ümummilli liderimizin arzuladığı bir Azərbaycan var, dövlətçilik əmin əllərdə yaşayır və Qarabağ, onun tacı Şuşa tarixi sahibinə qovuşub, doğma yurdumuza 30 ildən sonra yenidən həyat qayıdır. Və ruhun şad olsun ulu öndər, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib, şanlı bayrağımız Qarabağ torpağında dalğalanır və Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur!***

## PREZİDENT İLHAM ƏLİYEV: "Əldə edilən hər bir uğurumuz Heydər Əliyevin xidmətləridir"

Bəli, bu gün ulu önədərin layiqlai davamçısı Azərbaycan Prezidenti İlham Əliyev onun arzularını gerçəkliyə çevirib. Artıq qalib xalq kimi ulu öndərin ad gününün 100 illiyini fərqli ovqat, böyük coşqu və qalib xalq kimi qarşılayır. Ən əsası isə, məhz 2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili ilə bağlı Prezident İlham Əliyev cənablarının 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamı ulu öndərin Azərbaycanın ən yeni tarixinin 35 ilə yaxın dövründə Azərbaycan xalqı, dövlətçiliyimiz, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyərdir.

Sərəncamda deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

Bəli, bugünkü günün memarı olan ümummilli liderin arzuları artıq həyata keçirilib. Bütün fəaliyyətini Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına həsr edən ulu öndərin yarımçıq qalmış ideyalarını dahi şəxsiyyətin siyasi məktəbinin ən layiqli davamçısı Prezident İlham Əliyev reallaşdırdı. Ali Baş Komandan, Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti ilə Müzəffər Azərbaycan Ordusu rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığı ilə 44 gün ərzində xalqımızın 30 illik yurd həsrətinə birdəfəlik son qoydu, Ermənistanı diz çökdürdü. Və 2020-ci ilin noyabrın 10-da Ermənistan dövləti kapitulyasiya oldu. Azərbaycan qalib Sərkərdə, Müzəffər Ali Baş Komandan İlham Əliyev siyasi strategiyası sayəsində öz gücünə torpaqlarımızı işğaldan azad etdi. Bununla da ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Biz doğma Qarabağımıza qovuşduq!.

## "QARABAĞ MƏSƏLƏSİNİ HƏLL EDƏCƏYİK. ZAMAN LAZIMDIR, VAXT LAZIMDIR. AZƏRBAYCAN TORPAQLARI HEÇ VAXT ONUN ƏLİNDƏN GEDƏ BİLMƏZ. BİZİM İŞĞAL OLUNMUŞ TORPAQLARIMIZ MÜTLƏQ QAYTARILACAQDIR"

Bəli, tarix ən ədalətli hakimdir və bu gün Zəfərə gedən yolun əsasında tarixi şəxsiyyət, dahi Heydər Əliyevin ölməz ideyaları dayanır. Bu 1969-cu il iyulun 14-ü ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlaması kimi son dərəcə qiymətli bir hadisə ilə əbədiləşmişdir.

Ulu Öndər Heydər Əliyev bütün çıxışlarında, siyasi fəaliyyətində Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə çalışırdı. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü vəziyyət haqqında dünya ictimaiyyətinə ətraflı məlumat verən Ulu Öndər özünün qətiyyətli və prinsipial mövqeyini bir daha nümayiş etdirir: "Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara-köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin - Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin - Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik".

## YA AYAĞA QALXIB TORPAQLARIMIZI AZAD ETMƏLİ, YA MƏHV OLMALI, YA DA MİLLƏT OLMADIĞIMIZI ETİRAF ETMƏLİYİK!

Ulu öndərin "Ya ayağa qalxıb torpaqlarımızı azad etməli, ya məhv olmalı, ya da millət olmadığımızı etiraf etməliyik" siyasi fəlsəfəsində Azərbaycan xalqı həmişə güclü olub. Və güclü xalqın böyük şəxsiyyəti, müasir Azərbaycanın qurucusu iyirmi il SSRİ və Azərbaycan SSR Ali sovetlərinin deputatı, beş il SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışan Heydər Əliyev gücü qarşısında tab gətirə bilmədikləri üçün ümummilli lider 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verdi.

## HEYDƏR ƏLİYEVİN İKİNCİ DƏFƏ AZƏRBAYCANA RƏHBƏRLİK ETMƏSİ ERMƏNİLƏRİN KABUSUNA ÇEVRİLDİ

Azərbaycan xalqının taleyində böyük əhəmiyyəti olan günlərdən biri və ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günü oldu. Bu əlamətdar gündən ötən 29 il Azərbaycanın qurtuluş və zəfər dövrüdür. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın sarsılmaz təməlləri qoyuldu. Və 1993-cü ildən yenidən ölkəyə rəhbərlik edən ulu öndərin Azərbaycanda hakimiyyəti gücləndirməsi Qarabağı müvəqqəti olaraq işğalda saxlamağı bacaran Ermənistanın hərbi-siyasi rəhbərliyi üçün kabusa çevrildi. Ümummilli lider hər bir səfəri, beynəlxalq tədbirlərdə iştirakı, çıxışlarında Qarabağ məsələsini daim diqqətdə saxlayır, işğalçıların mənfur siyasətini dəmir məntiqi ilə ifşa edirdi. Hələ ulu öndər prezident səlahiyyətlərini həyata keçirən zaman ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri Margioa Raffaelli ilə birgə mətbuat konfransında münaqişəyə dair əsl həqiqətləri beynəlxalq mətbuatın diqqətinə çatdırmış, qarşı tərəfin bölgəyə səfərlərin təşkil olunmasında süni əngəllər yaratmasını ifşa etmişdi.

"Minsk konfransının, hörmətli beynəlxalq təşkilat olan ATƏM-in, Birləşmiş Millətlər Təşkilatının nüfuzu böyük olsa da, Dağlıq Qarabağla bağlı münaqişənin dinclikIə aradan qaldırılması sahəsində istər ATƏM, istərsə də Minsk konfransının ötən dövrdə gördüyü iş, göstərdiyi səylər, təəssüflər olsun, heç cür bir nəticə verməmişdir. Biz böyük təəssüflə qeyd edirik ki, bir tərəfdən həmin dövrdə həm Minsk konfransı, həm də ATƏM münaqişənin dincliklə aradan qaldırılması istiqamətində fəaliyyət göstərmişdir, digər tərəfdən, bu dövrdə müharibə getmiş, qan tökülmüşdür, erməni silahlı birləşmələri Azərbaycan ərazisində dəfələrlə təcavüzkar basqınlar etmişlər və bu müddət ərzində Azərbaycan ərazisinin bir hissəsini erməni silahlı birləşmələri işğal etmiş, ələ keçirmişlər", - deyə ulu öndər zamanında bu qurumun yarıtmaz fəaliyyətini tənqid etmişdi.

## DÜNYA BİLMƏLİDİR, O CÜMLƏDƏN ERMƏNİSTAN BİLMƏLİDİR Kİ, BİZ HEÇ VAXT TORPAQLARIMIZIN BİR QARIŞINI DA HEÇ KƏSƏ VERMƏYƏCİYİK

Ruhut şad olsun ulu öndər, bu gün Sizin deyiyiniz kimi: "Mənim başa çatdıra bilmədiyim bütün işləri İlham Əliyev başa çatdıracaq". Artıq arzularınız reallaşıb. Uulu öndər: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır" - fikrini deyərkən inanırdı ki, o gün tezliklə olacaq və yurdumuz düşmən əsarətindən azad olunacaq, memarı olduğu Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi dövründə daha da güclənəcək, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirəcək və qüdrətli ordusu ilə tarixi ədaləti bərpa edəcək. Artıq bu gün

## HEYDƏR ƏLİYEV İDEYALARININ İŞIĞINDA - DİNAMİK İNKİŞAF EDƏN, ƏRAZİ BÜTÖVLÜYÜ BƏRPA OLUNAN AZƏRBAYCAN

Ulu öndər Heydər Əliyev siyasətinin davamçısı Prezident İlham Əliyev son 19 ildə ümummilli liderin ideyalarının işığında böyük inkişaf yolu keçib, ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Bütün bunlar əyani şəkildə göstərir ki, Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Məhz ulu öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır, texniki təchizat baxımından bir çox ölkələrin ordularını üstələyir. Təsadüfi deyil ki, Azərbaycanın Vətən müharibəsi, xüsusən misilsiz Şuşa əməliyyatı dünyanın aparıcı ölkələri tərəfindən öyrənilməkdədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu Vətən müharibəsində parlaq Qələbə qazanaraq işğal altındakı torpaqlarımızı azad edib, ölkəmizin ərazi bütövlüyü təmin olunub. Ruhun şad olsun, ulu öndər, artıq 28 ildən sonra Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. Bu gün Şuşada, Laçında, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə üçrəngli bayrağımız əzəmətlə dalğalanır.

Bəli, bu gün müstəqil Azərbaycanın xoşbəxtliyi ondadır ki, Prezident İlham Əliyev ulu öndərin siyasətinin ardıcıllığını uğurla təmin edir. Sərəncamda vurğulandığı kimi, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli ulu öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Və ulu öndərin şah əsəri olan güclü Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirdi. Bir sözlə, böyük ulu öndər şəxsiyyətin ideyaları və əməlləri zaman bilmədən respublikamızda əbədiyyətə qədər davam edəcək. Ulu öndər buna inanır və deyirdi: "Mən Azərbaycanda əbədi olacağam!".

*RƏFİQƏ KAMALQIZI*

# Yanlış olaraq təhdid sayılan QARŞILIQLI ETİMAD





***Azərbaycanın İsraildə səfirliyinin açılışı tarixi hadisə olmaqla yanaşı, ölkəmizin növbəti uğurunu təsdiq edən, həmin ölkə ilə qarşılıqlı etimad fonunda mövqeyinin daha da möhkəmləndiyini isbatlayan danılmaz həqiqət və reallıqdır. Təsadüfi deyl ki, ölkəmizə düşmən kəsilən qüvvələr, yaxud tərəflər buna görə çox narahat olublar və bu hadisəni, bu reallığı özləri üçün təhdid hesab edirlər. Əslində isə, onların təhdid hesab etdiləri, ölkələr arasında qarşılıqlı etimad, eləcə də bu fonda ölkəmizin artan nüfuzunun, potensialının və qüdrətinin daha da artmasıdır.***




"Xain xoflu olar", zərb məsəli belə bir məqamda tam yerinə düşür. Əvvəla ona görə ki, İsrail dövlətini özünə düşmən bəlləyən tərəflər, qüvvələr bu ölkənin Azərbaycanla əlaqələrinin daha da möhkəmlənməsindən, bizim səfirliyimizin həmin ölkədə açılmasından narahat olduqları göz önündədir. Deməli, həmin qüvvələr, həmin tərəflər bundan bərk qıcıqlanırlar və bunu özləri üçün arzuolunmaz hesab etdiklərini də bəlaliklə ortaya qoymuş olurlar. Digər tərəfdən də həmin tərəflərin niyə məhz başqa ölkənin deyil, Azərbaycanın İsraildə səfirliyinin açılmasından qıcıqlandığı da bəzi məqamlara aydınlıq gətirmək üçün kifayət edir. Axı İsraildə səfirliyi olan təkcə Azərbaycan deyil və belə çıxır ki, bəzi qüvvələr, yaxud da ölkələr məhz Azərbaycanın gücünün, qüdrətinin artmasından çox narahatdırlar. Bu isə o deməkdir ki, onların ölkəmizə qarşı niyyətləri, məqmları heç də xoşniyyətli deyilmiş. Ölkəmizin İsraildə səfirliyinin açılmasından da buna görə qorxuya düşüblər və bu səbəbdən də təhdid hesab edirlər.

Heç şübhəsiz ki, Azərbaycan və İsrail olmaqla, iki ölkə arasında diplomatik münasibətlərin yeni səviyyəsi artıq mövcud olan sıx işgüzar əməkdaşlığa və Bakı ilə Təl-Əviv arasında ildən-ilə möhkəmlənən kifayət qədər mehriban, etimadlı əlaqələrə bundan sonra ciddi şəkildə təkan verəcək. İstər ticarət, istər iqtisadiyyat, istər mədəniyyət, istərsə də siyasət və hətta hərbi-texniki sahədə hər iki ölkənin maraqlı olduğu təkzib edilə bilməz. Bir sözlə sadalanan istiqamətlərdə Azərbaycan və İsrail getdikcə daha çox qarşılıqlı maraqlar nümayiş etdirdiyi göz önündədir. Bu da təsadüfi deyil. Əvvəla, İsrail Dövləti Azərbaycan Respublikasının müstəqilliyini hələ 1991-ci ilin dekabrında rəsmən tanıyan ilk dövlətlər sırasındadır və 1992-ci ilin aprelində ölkələrimiz arasında diplomatik əlaqələrin qurulduğu, təxminən bir il sonra, daha dəqiq desək, 1993-cü ilin avqustunda İsrailin Azərbaycanda səfirliyinin açıldığı da tarixi faktlardır. Bütün bunların fonunda Azərbaycan rəhbərliyinin Təl-Əvivdə səfirlik açmaq qərarı, həmin ölkədə səfirliyin açılması tam məntiqidir və bu səbəbdən də ictimaiyyət tərəfindən, ölkə vətəndaşları tərəfindən çox yaxşı qarşılanır. Ölkəmizin rəhbərliyinin Təl-Əvivdə səfirlik açmaq qərarı belə İsraildə də böyük ruh yüksəkliyi ilə qarşılanıb. Milli Məclisdə bu qanunun qəbul edilməsindən dərhal sonra, keçən ilin noyabrında İsrailin baş naziri Yair Lapidin öz Tvitter hesabında Azərbaycan parlamentinin qərarını hərarətlə alqışlaması deyilənləri təsdiq edir. "Azərbaycan İsrail üçün mühüm tərəfdaşdır və müsəlman dünyasında ən böyük yəhudi icmalarından birinə ev sahibliyi edir. Səfirlik açmaq qərarı ölkələr arasında münasibətlərin dərinliyini əks etdirir. Bu addım İsrail hökumətinin müsəlman dünyası ilə güclü siyasi körpülər qurmaq səylərinin bəhrəsidir", deyə İsrailin baş naziri həmin vaxt öz Tvitter hesabında qeyd etmişdi və bu onu göstərir ki, qarşılıqlı etimad həmişə olub və bu günlərdə də öz təsdiqini tapdı.

Azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra mətbuata birgə bəyanatla çıxış edən İsrailin xarici işlər naziri Eli Kohenin Azərbaycanın İsraildə səfirliyinin açılmasına görə şəxsən Azərbaycan prezidentinə təşəkkür etməsi də diqqətə layiq məqamdır. "Azərbaycan Prezidentinə İsraildə səfirlik açmaq qərarına görə təşəkkür edirəm. Əminəm ki, bu, iki ölkənin hökumətləri və xalqları arasında münasibətlərin dərinləşməsinə töhfə verəcək", deyən İsrailin xarici işlər naziri bu addımın iki ölkə arasında strateji münasibətlərin dərinliyinə böyük qiymət verdiyini isbatlayır.

Sözsüz ki, ölkələrmiz arasında, yeni Azərbaycan və İsrail arasında strateji əməkdaşlığa hər zaman önəm verilib. Biz bunun dəfələrlə şahidi olmuşuq. Xatırladığımız kimi, İsrailin Azərbaycanla strateji əməkdaşlığa önəm verdiyini İsrailin Azərbaycandakı səfiri Corc Dik 2021-ci ilin dekabrında Bakıda keçirdiyi mətbuat konfransında da bildirib. Ən çox diqqət çəkən məqam isə İsrail səfirinin, 2020-ci ildə 44 günlük müharibə zamanı ölkələrimiz arasında münasibətlərin bir çox sınaqlardan çıxdığını o zaman dilə gətirməsidir. Həqiqətən də İsrail Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli məsələsində öz ədalətli mövqeyini ortaya qoyub, ölkəmizin ərazi bütövlüyü və suverenliyini hər zaman dəstəkləyib. Rəsmi həmin ölkənin belə bir mövqeyini yüksək qiymətləndirir. İsrail hökuməti də öz növbəsində Azərbaycan ərazisində böyük bir yəhudi icmasının yaşamasına prinsipial əhəmiyyətli məsələ kimi yanaşır və xalqlarımız arasında münasibətlərin qədim tarixə malik olduğuna dəyər verir.

İsraillə Azərbaycan arasında iqtisadi sahədə ikitərəfli əməkdaşlığın dərinləşməsinin kifayət qədər, olduqca böyük potensiala malik olduğu da artıq öz təsdiqini tapıb. Ötən ildə, 2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsinin əvvəlki illə müqayisədə 85 faiz artaraq 7 milyard dolları ötməsi bunun əyani sübutudur. Statistik göstəricilərdən də məlum olur ki, deməli, dövriyyə dinamik şəkildə artmaqdadır. Bu artım özü də qarşılıqlı etimad mühitinin olmasından xəbər verir. Əks halda ən azından artım müşahidə edilməzdi. O da təsadüfi deyil ki, dünya bazarında Azərbaycan neftinin əsas alıcılarından biri də məhz İsraildir və ölkəmizdə hal-hazırda 114 İsrail şirkəti fəaliyyət göstərir. Bütün bunlar qarşılıqlı etimadın bariz nümunəsidir, desək haqlıyıq.

İki ölkə arasında hərbi-texniki əməkdaşlığa gəlincə, bu barədə də perspektivlər kifayət qədərdir. Görünür Ermənistanı narahat edən də hər zaman bu perspektiv olub. Axı İsrail Ermənistana silah satmaqdan imtina edib və bu məsələyə görə də separatçılar çox narahatdırlar. Narahatdırlar ki, ölkələrimiz arasında əməkdaşlıq hər sahədə olduğu kimi, hərbi-texniki sahədə də dinamik inkişafdadır. Bu inkişafı İsrailin xarici işlər naziri Eli Koenin Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla danışıqlardan sonra keçirilən mətbuat konfransında qeyd etməsi, İsrail nümayəndə heyətinin bir ay sonra Azərbaycana nəzərdə tutulan qarşıdakı səfəri zamanı geniş müzakirələr aparılacağını vurğulaması həmin sahədə də dinamik inkişafın olacağı deməkdir.

Bilirik ki, Yaxın Şərqlə uzunmüddətli strateji əməkdaşlığın qurulmasının əsas şərti Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təmin edilməsidir və Azərbaycanın da öz regionunda sülhün bərqərar olması istiqamətində gördüyü işlər danılmazdır. Məsələ burasındadır ki, bizim qonşu dövlətlərimiz olan Ermənistan və İran barədə bunu demək olmaz. Əksinə, hər iki qonşu dövlətin regionda sülhün bərqərar olmasına əngəl olduğu ortadadır. Görünür, məhz bu baxımdan da Azərbaycana qarşı qısqanclıqla yanaşılır və indi Azərbaycan-İsrail əlaqələrinin güclənməsi çox ağrılı şəkildə qəbul edilir, bu əlaqələri özləri üçün hətta təhdid kimi də görürlər. Əlbəttə, belə görünür ki, Azərbaycanın İsraildə səfirliyinin açılmasını Tehran tərəfi rəsmi Bakının növbəti "düşmən" addımı kimi də adlandıra bilər. Amma əgər İran tərəfi Azərbaycana qarşı belə iddialar səsləndirsə, bu, tamamilə əsassız sayılmalıdır. Nəinki əsassız, hətta qərəzli hesab olunmalıdır. Çünki rəsmi Bakı dəfələrlə rəsmi Tehranın diqqətinə çatdırıb ki, qeyd olunan iddiaları əsassızdır və İsraillə dostluq münasibətləri İrana qarşı düşmənçilik niyyəti demək deyil. Buna baxmayaraq İran bu münasibətləri özü üçün təhdid hesab edir, amma bu münasibətlər təhdid yox, qarşılıqlı etimad deməkdir və qonşu ölkələr bunu belə dəyərləndirməlidirlər.

Ümumiyyətlə, ölkəmizin təkcə İsrail deyil, hansısa ölkə ilə münasibətlərini yaxşılaşdırmasına heç bir ölkənin qarışmaq hüququ yoxdur. Azərbaycan müstəqil ölkədir və hansısa ölkəyə rəsmi Bakının qərarlarını müzakirə belə etmək haqqı verilməyib, çünki öz daxili işidir. Azərbaycan da öz növbəsində başqa dövlətin daxili işlərinə qarışmamaq prinsipinə ciddi riayət edir, baxmayaraq ki, 44 günlük müharibədən öncə də, müharibə dönəmində də, müharibə bitdikdən sonra da İran Ermənistanın ölkəmizə təcavüzünü belə dəstəkləyib və hələ də bu niyyətini gizlətmir. Yeri gələndə Bakının Tehranın siyasətindən narazı qalması üçün hər cür əsası da var. Çünki İran məhz Azərbaycana təcavüz edən, torpaqlarını bir zaman işğal altında saxlayan, xalqımıza qarşı soyqırım edən və yenə də həmin niyyətdə olan bir təcavüzkar ölkəni dəstəkləyir və buna narazı olmaq tam məntiqidir.

Heç şübhəsiz ki, Azərbaycanın qələbəsindən sonra regionda yeni reallıqların yaranması, ölkəmizin lider dövlət olması İranı narahat edir. Elə bu narahatlığı fonunda da İsraillə münasibətlərimizin yaxşılaşmasına təhdid kimi baxması məsələnin iç üzünü ortaya qoyur. Həm İsrail, həm də Azərbaycan üçün münasibətlərin yaxşılaşmasını düşmən bəllədiyi hər iki ölkənin gücünün, qüdrətinin artması kimi dəyərləndirir, bundan da narahat olur. Məsələ burasındadır ki, İran tərəfi də, elə Ermənistan tərəfi də bundan narahat olsa da, bunu özləri üçün təhdid hesab etsə də, Azərbaycan öz milli maraqlarına, eləcə də bu milli maraqları dəstəkləyən dost ölkələrlə münasibətlərinə həssas, özü də hörmətlə yanaşır və kimlərinsə özlərinə təhdid hesab etdikləri qarşılıqlı etimada çox böyük önəm verir.

***İnam Hacıyev***

# İrana bağlı "Hizbullah" terrorçuları Ukraynanın işğalında (?!)





## Qruplaşma təlimatçılarının məhv edildikləri yer haradır?

***İranın mövcud hakim quruluşunun eyni zamanda terror rejimi kimi fəaliyyət göstərməsi ilə bağlı daha əvvəllər də müxtəlif versiyalar və iddialar səsləndirilirdi. Belə ki, Tehranın əsas həbi güclərindən hesab edilən SEPAH və ETTELAAT (İran İnformasiya, Kəşfiyyat və Təhlükəsizlik Nazirlinə bağlı qurum) kimi qurum təmsilçilərinin bu və ya digər xarici ölkələrdəki terrorçuluq fəaliyyətləri haqqında informasiyalar hazırda da internet resurslarında yer almaqdadır.***

Bənzər məlumatlar Suriyadan, Yəməndən, Livandan, Fələstindən əldə olunsa da, növbəti informasiyaların Ukraynadan da gəlməsi əslində gözlənilməz sayıla bilər. Əslində, Tehranın Moskvanı silah və hərbi təchizatlarlarla, xüsusilə zərbə dronları ilə təmin etməsindən sonra bu dəfə ayrı-ayrı dəstələrinin də bəlli məqsədlər üçün göndərilmələri növbəti sualı doğurur - Tehran Rusiya-Ukrayna müharibəsində açıq iştirakçıya çevrilibmi?

### İranın satellitləri - "Hizbullah" terrorçularını kimlər harada və necə məhv edib?

Bu yaxınlarda İranın regiondakı əsas podratçısı və satelliti hesab edilən "Hizbullah"a məxsus media resursları üç nəfər aparıcı funksionerinin öldürülməsi ilə bağlı informasiya yaymışdılar. Həmin məlumatlar ayrı-ayrılıqda və qısa intervallarla dərc edilmişdi. Məlumatların tərzindən və kontekstindən də göründürü ki, onların hər üçü məhz hərbi əməliyyatlar zamanı öldürülüblər. Lakin onların ölüm vəziyyətləri və həlak olduqları yer barədə heç bir açıqlama verilmədi.

### Suriyada..? Yəməndə..? İraqda..?

Lakin müxalifətdə olan Suriya demokratik güclərinin və İsrailin yuxarı eşalonlarına bağlı olan bəzi teleqram kanalları belə bir ehtimalla çıxış etdilər ki, onların hər üçü ABŞ gücləri tərəfindən Suriyada məhv ediliblər. Amma ortaya çıxan digər informasiya bu ehtimalları arxa plana çəkdi. Belə ki, Livanın "Hizbullaha" bağlı "Almayadeen" saytı həmin ehtimalları da rədd etdi. Ancaq bu informasiya resursu da həmin üç nəfərin ölümlərinin yeri haqqında heç bir məlu-







mat vermədi. Üstəlik, əgər İrana bağlı "Hizbullah" terrorçuları həqiqətən də Livanla İsrailin sərhədində, yəni Suriyada öldürülsəydilər artıq bu barədə İsrail KİV-ləri nəticə etibarı ilə məlumat yayardılar. Lakin bu barədə İsrailə bağlı media resursları heç bir xəbər vermədilər.

Bu arada daha bir məqamı da qeyd edək ki, "Hizbullah" emissarları SEPAH-a bağlı hərbi mütəxəssisləri ilə 2016-2017-ci illərdən başlayaraq müştərək şəkildə Yəməndə də fəaliyyət göstəriblər. Sadəcə, son vaxtlar İranın Səudiyyə Ərəbistanı ilə münasibətlərini loyallaşdırması hələ ki, bu regiondakı qarşıdurmaları az da olsa səngidib. Yəni "Hizbullah" terrorçularının bu regionda da öldürülmələri iddiaları təsdiqini tapmır.

Daha bir ehtimal İraq ola bilərdi ki, orada "Hizbullahın" yerli şöbəsi fəaliyyət göstərir. 2017-ci ildə bu ölkədə İŞİD-in əsas qüvvələrinin darmadağın edilməsindən sonra orada hər hansı ciddi silahlı qarşıdurmaların baş verməsi ehtimalı da çox azdır.

### Yekun nəticə - Krım!

Bu fonda yeganə mümkün ehtimal Ukrayna cəbhəsidir. Daha doğrusu, "Hizbullahın" hər üç terrorçusunun Krımda məhv edilmələri real görünür. Sual oluna bilinər ki, niyə məhz Krımda? Belə ki, hələ 2022-ci ilin oktyabrında məlumatlar dolaşırdı ki, SEPAH-ın 50 nəfərlik təlimatçı heyəti məhz orada - Krımda fəaliyyət göstərir. Yəmən, Suriya, İraq təcrübəsinə görə onları "Hizbullah" təmsilçiləri də müşayiət edirlər. Əbəs deyil ki, Tehan daha çətin və təhlükəli əməliyyatların həyata keçirilməsini məhz "Hizbullahın" üzərinə qoyur.

Bu baxımdan, Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Aleksey Danilovun ötən ilin noyabrında Ukrayna xüsusi əməliyyatçılarının İran tərəfindən göndərilmiş hərbi emissarların və mütəxəssislərin Krımda məhv edilmələri barədə dediklərindən yekun nəticə hasil etmək olar.

**Rövşən RƏSULOV**

# Şəkidə gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.



2023-cü il martın 31-də YAP Şəki rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Şəki Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonda partiya sıralarına yeni qəbul olunmuş gənclərə üzvlük vəsiqələri təqdim edilib.






# Baydenin sammiti və demokratiya

RAKURS

***ABŞ prezidenti Co Baydenin təşəbbüsü ilə II Demokratiya Sammiti keçirildi. Dünyanın 120-dən çox ölkəsini təmsil edənlər qoca Baydenin moizələrinə qulaq asmaq üçün bir araya gəldilər. Sem dayının prototipi olan bu ixtiyar amerikalının dediyinə görə sammitə dəvət olunan ölkələrdə ən azından demokratiya haqqında təsəvvürlər var, qalanlarında isə ya normadan aşağıdır, ya da heç yoxdur. Digər rakursdan baxanlar isə bu tədbiri demokratiya adı altında Baydenin tərəfdaşlarını təftiş etmək proseduru da adlandırırlar. ABŞ prezidenti Rusiya və Çinlə haqq-hesab çürütmək məqamı gələndə daha çox hansı ölkənin onun yanında duruş gətirə biləcəyini ölçür və indidən hesabını aparır. Əslində burada qeyri-adi heç nə yoxdur, güc təkcə hərbi arsenaldakı nüvə naşlıqlarının sayı ilə hesablanmır, həm də ətrafında kimin olması ilə ölçülür.***

Bundan əvvəl Rusiya da “lakmus kağızı”ndan istifadə edərək MDB və KTMT-də təmsil olunan ölkələrinin “dişi”ni yoxlamışdı. Bu tədbirə müşahidəçi qismində digər “dost” ölkələri də dəvət etmişdi. Bününlə da səngərin fərqli tərəfində dayanan güclər çətin və məşəqqətli yola kiminlə çıxacaqlarını təxmin etmişdilər. Düzdür, hər iki tədbirdə iştirak edən dövlətlərin heç də hamısı tədbirin təşkilatçı və təşəbbüskar olan “supergüclər”in əmrlərinə “ləbbeyk” deməyəcəkləri gözlənilən idi. Amma “sınamaqda fayda var”, deyə düşünən moderatorlar görüntü naminə də olsa tərəfdarlarının sayını nümayiş etdirirlər. Baydenin sammitinə dəvət olunanların sayında sıxlıq olsa da, burada iştirak edən dövlətlərin məhz demokratik dəyərlərinə görə çağrılmadıqları ortadadır.

Beynəlxalq təşkilatların hesabatlarında göstərilən demokratiya dərəcələri ilə qoca Baydenin “müdrikcəsinə” tərtib etdiyi siyahı arasında xeyli fərq var. Bu da onu göstərir ki, deyilənlər həqiqətdir, Ağ Evin indiki sahibi “demoktratiya” adı altında dünyanı iki cəbhəyə bölür, ikitirəlik yaradır. ABŞ başqa cəbhədə olan ölkələrə dərs keçməyə çalışır ki, bu da bir çox dövlətlər tərəfindən ciddi qəbul edilmir. Son “sammit” ilə hələ də dünyada qondarma demokratiyanın müəllimi olduğunu iddia edən Amerika həmin tədbirdə bir sıra ölkələrə “əxlaq” dərsi keçmək üçün onları “şagirdlər” adı altında bir araya gətirməyə ikinci dəfə cəhd edib. Əlbəttə bu dərsdə iştirak etmək həmin ölkələrin suveren haqqıdır, lakin burada əslində çoxları görür ki, dünyanı birinci və ikinci dərəcəli ölkələrə bölmək cəhdləri indi çoxları tərəfindən təbəssümlə qarşılanır. Ona görə də “demokratiya sammiti”ni “bir növ ciddi hadisə kimi təsnif etmək olmaz.

ABŞ prezidenti bir tərəfdən demokratiyadan danışır, digər tərəfdən 30 il Azərbaycan torpaqlarında vandalizm aktı törədən, 1 milyona yaxın vətəndaşını öz evindən didərgin salan, onların adi yaşamaq haqqını əlindən alan, mülkiyyət hüququnu tanımayan bir ölkəni – Ermənistanı sammitə dəvət edir. Belə çıxır ki, ABŞ prezidenti demokratiyanın heç “d” hərfini də anlamaq iqtidarında deyil. Digər tərəfdən, Bayden başqa ölkələrin ərazi bütövlüyünə də hörmətlə yanaşmır, Çinin suveren ərazisi – Tayvanı da sammitə dəvət etməklə dünyada presedentin davamını gətirmək və beləliklə dünya xaosu yaratmağa çalışır. Siyahıda Misir, Çin, Rusiya, Türkiyə və bir sıra digər ölkələrin adının olmaması fəlakət sayılmasa da beynəlxalq münasibətlərin inkişafında ən böyük əngəldir, deyə bilərik. Siyahıda yer alan ölkələrin əksəriyyəti gələcəkdə Rusiya və Çin kimi nəhənglərlə mübarizədə istifadə edilməsi mümkün olanlardır.

## Haradadır demokratiya?

”Demokratiya sammiti”ndə iştiraka dəvət almış 109 ölkənin hansı kriteriya ilə seçildiyi böyük sual doğurur. Haqqı çatan bəzi ölkələr siyahıdan kənarda qalıb, amma adları anti-demokratiyanın əksər təzahürləri̇ndə hallanan bəzi ölkələr isə siyahıya salınıb. Məlum olur ki, əslində siyahı demokratiya meyarlarına uyğun olaraq yox, məhz ABŞ-ın qlobal, geosiyasi maraqları baxımından tərtib olunub. Rəsmi Vaşinqton özünün yeni strategiyasını müəyyənləşdirmək üçün dünya dövlətlərinin arasında bu cür mənasız ayrıseçkilik salır və onları iki düşərgəyə bölür. Deməli, sammitin hədəfi demokratiya yox, Çinin qlobal liderliyinin qarşısını almaq və Rusiyanı cilovlamaq üçün yeni platforma inşa etməkdir. Siyahıda yer alan dövlətlər isə öz milli maraqlarına zidd olaraq daha bir qlobal oyunun ssenarisinə daxil edilirlər. Siyahıda olmayan Azərbaycan və Türkiyənin ABŞ-ın qlobal ambisiyasında alət rolunu oynayacağı mümkün deyil. Bu sammitdə iştirak etməmək əslində bizim seçimimizdir. Azərbaycan-Türkiyə birliyi regionda artıq güc mərkəzidir və hansısa ölkəyə qarşı tərtib edilmiş oyunlarda yer almaq niyyətində deyillər. Bu cür sammitlər vasitəsilə dünyanı iki qütbə - yaxşılar və pislər düşərgəsinə ayırmaq, ayrıseçkiliklə dövlətləri bir-birinə qarşı qoymaq qəbuledilməzdir. Bu dünya birliyi üçün bir təhdiddir, dünya nizamı üçün zərərlidir, münasibətlərin pozulmasına gətirib çıxaran addımlardır.

Samitdə iştirak edən ölkələrlə bağlı müxtəlif fikirlər də var. Bu ölkələrin bir qisminin mövqeyi və nüfuzu çox aşağı olan ölkələrdir. Digər bir hissəsi isə öz mənfəətini, məqsədini güdənlərdir. Onların sammitə qatılmaqla ABŞ-dan nə isə umacaqlarını ifadə edirlər.

Ermənistan Sammitə dəvətini alıb. Guya ki, bu ölkədə demokratiya ABŞ-ın ölçü vahidinə uyğundur. Yəni ən azından azad seçkilər keçirilir, insan haqları qorunur, mətbuat və söz azadlığı bərqərar olub. Amma Ermənistana içəridən baxanda hər şeyin çox bərbad vəziyyətdə olduğu görünər. Əgər hesab etsək ki, adıçəkilən kriteriyaların cəmiyyətdə mövcud olmasının əsas səbəbkarı hakimiyyətdir, onda Ermənistanda so 4 ildə baş verənlərlə demokratiyanın bir araya sığmadığnı Baydenin diqqətinə çatdırmaqda bir fayda olacağını düşünürük. Ermənistan işğalçıdır, insan haqlarını tanımır, qorumur, başqa dinlərə, millətlərə, mədəniyyətlərə qarşı dözümsüzdür, müxtəlif istiqamətli fobiyaların müəllifi və icraçısıdır, ərazisində başqa etniklərin yaşamasına qısqanclıqla və aqressiv şəkildə yanaşır. Bu ölkənin hazırkı lideri Paşinyan ilkin olaraq bəyan etdiyi demokratik dəyərlərdən geri çəkilib, etirazçıları təqib edib və ya həbs edib, medianı susdurub və ictimaiyyətin rəyini nəzərə alır, qərarları birtərəfli qaydada qəbul edir. Paşinyanın seçkiləri zamanı əlində çəkic tutaraq siyasi rəqiblərinin başını sındırmaqla hədələməsi də unudulmamalıdır. Əcəba, Ermənistanı bu sammitə dəvət etməklə Bayden dünya birliyinə nəyi izah etmək istəyib?

“Sammit”in qarşısında “demokratiya” sözü yazılmasaydı, bəlkə də Baydeni başa düşmək olardı. Amma Ermənistan kimi barbar ölkənin bu siyahıda yer almasında başqa məqsəd güdüldüyü artıq ortadadır. ABŞ bu addımı atmaqla, çox güman ki, Ermənistan hökumətini Qərblə yaxınlaşdırmaq istəyir və bunun üçün İrəvanı şirnikləndirir. Yəni Ermənistanı Rusiyanın caynağından qoparıb almaq istəyən Vaşinqton bunun üçün hətta ABŞ-ın ən yüksək prinsiplərini də qurban verməyi gözə alıb. Bəs demokratiya səviyyəsinin dəvət olunan ölkələrin əksəriyyətindən qat-qat yüksək olduğu Azərbaycan, Türkiyə və Macarıstanı diqqətdən kənarda saxlamaqda hansı məqsədlər güdülə bilər. Yaxud ABŞ bu ölkələri dəvət etməməklə hansı dividentlər qazanmağı qarşısına məqsəd qoyub?

Əgər nəzərə alsaq ki, Bayden ABŞ-dakı erməni lobbisinin təsiri ilə Ermənistanı bu sammitə dəvət edib, bu, daha pis. Amerika diplomatiyasında zəiflik, İrəvana əyilmək, onun çaldığı hava ilə oynamaq ABŞ-ın dünya birliyindəki imicinə ciddi zərbə vurur. Cənubi Qafqazı qan gölünə çevirən, terror aktları ilə təhdid edən, qeyri-bəşəri fəaliyyəti ilə tanınan Ermənistanın sammitə dəvət olunması əslində Qərbin, xüsusən də ABŞ-ın demokratiya anlayışını tam əks etdirir. Başqa ölkələrin demokratiya dəyərlərinin ölçülməsi də əslində faydasızdır. Sammit “demokratiya” adı altında artıq ikinci dəfədir ki, keçirilir və bu günə kimi öz məqsədinə nail olmayıb. Bu məqsədin demokratiya ilə əlaqəli olması da şübhəlidir. Ermənistandan başqa Suriya və Liviyanın da sammitə dəvət edilməsi isə Baydenin “demokratiya qızdırması” xəstəliyinə tutulduğunu təsdiqləyir.

## Sammitin adı nə olsun?

Bütün baş verənlərdən çıxış edərək deyə bilərik ki, bu sammitin adı mütləq dəyişdirilməli, “Demokratiya Sammiti” deyil, “ABŞ müttəfiqlərinin Sammiti” qoyulmalıdır. Builki sammit isə beynəlxalq münasibətlərdə gülünc biz vəziyyət yaranıb. Dəvət olunan 120 ölkədən səkkizində hələ də vətəndaş müharibəsi gedir. Demokratiyanın əsas elementlərindən olan sosial rifah, adam başına düşən gəlirin ABŞ-ın elan etdiyi dəyərlərlə uyğun gəlmədiyi bu ölkələrin sammitə dəvət edilməsi də qeyri-ciddilikdən xəbər verir. ABŞ lideri Ermənistanı dəvət etməklə XXI əsrdə sivil insanların qətlinə haqq qazandırır.

Paşinyan “Demokratiya Sammiti”ndəki çıxışında Ermənistanın Qarabağda baş verənlərə göz yuma bilməz, deyib. Hədə-qorxu yağdırıb, müharibə ilə hədələyib və nəhaqət sülh prosesindən danışıb. Bir sözlə, hətərən-pətərən vurub. Erməni baş nazirin çıxışındakı bəzi nüanslar, əslində bu ölkənin bəşəriyyət üçün nə qədər təhlükəli olduğunu göstərir. Paşinyan bildirib ki, “Ermənistan bütün dünyada insan hüquqlarının pozulmasını qətiyyətlə pisləyir və biz soyqırımların, etnik təmizləmələrin və vəhşiliklərin qarşısını almaq üçün birlikdə çox şey etməliyik. Bu gün Qarabağdakı ermənilərlə baş verənlər, Laçın dəhlizinin Azərbaycan tərəfindən blokadaya alınması və bunun nəticəsində yaranan humanitar böhran açıq şəkildə ermənilərə qarşı etnik təmizləmə cəhdidir”. Bəli, bunu Paşinyan, Ermənistanın lideri deyib. Həm də o ölkənin lideri ki, məhz Qarabağda və Ermənistanada yaşayan etnik və aborigen xalq hesab olunan azərbaycanlılara qarşı insanlığa sığmayan vandallıqlar edib, soyqırımı törədib, insanların yaşamaq haqqını əlindən alıb, azərbaycanlı olduqlarına görə, uzun illər əsirlikdə, girovluqda saxlanılıb, öldürülüb. Paşinyan indi haqqında danışdığı blokadanı Ermənistanın 30 ildən artıqdır ki, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana qarşı tətbiq etdiyi danılmaz faktdır.

Sammitə dəvət edilməmək hər şeyin bitdiyi anlamına gəlmir, əksinə ölkənin nə qədər müstəqil siyasət yürütməsinin göstəricisidir. Məsələn NATO və Aİ üzvü olan, bununla belə müstəqil xarici siyasətilə Qərbin güc mərkəzlərinə öz istəklərini diktə etməyi bacaran Macarıstan Baydenin sammitinə dəvət edilməyib və bu yolla Budapeştin növbəti dəfə təklənilməsinə çalışılır. On illərdir demokratik seçkilərin keçirildiyi, ABŞ-ın özünə müttəfiq hesab etdiyi və Ukrayna müharibəsində qlobal əhəmiyyətli rolu öhdəsinə götürmüş Türkiyə də sammitə dəvət edilməyənlər arasındadır. Yəqin ki, bu yolla Vaşinqton həm də may ayında Türkiyədə keçiriləcək seçkilərin nəticəsinə təsir göstərməyə çalışır.

Azərbaycan isə ABŞ-ın beynəlxalq terrorçuluqla mübarizəsinə güclü dəstək verib. Onun Yaxın Şərqdə və Əfqanıstandakı əməliyyatlarında sülhməramlı missiya ilə iştirak edib. Hazırkı enerji böhranı şəraitində Qərbin etibarlı tərəfdaşına çevrilib. Bu, əslində Azərbaycanın müstəqil xarici siyasət yürütdüyünü göstərən daha bir nümunədir. Azərbaycan hakimiyyəti müstəqillik illərində ölkənin yerləşdiyi əlverişli geostrateji mövqeyindən məharətlə istifadə edərək qlobal və regional qarşıdurmalardan, toqquşmalardan, gərginliklərdən kənarda qalmağı bacarıb. Azərbaycanın regionun ən güclü dövlətlərindən birinə çevrilməsində bu cür qoşulmama mövqeyinin rolu danılmazdır. Bir ölkənin demokratik prinsiplərin əsas götürülmədiyi bu sammitə qatılıb-qatılmaması onun demokratiyasının indeksi kimi qəbul edilməməlidir. Bu, yalnız Baydenin mizan-tərəzisinə uyğunlaşdırılmış bir ölçüdür, əksər vaxt yanlış rəqəmlər göstərir.

**V.VƏLİYEV**

# Qlobal su böhranına hazırlıq üçün son anda atılmış addım

***Xəbər verildiyi kimi, Prezident Ilham Əliyevin imzaladığı "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" fərmanda Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyinin əsasında Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti əmlakları ilə birlikdə Agentliyin tabeliyinə verilib. Dövlət başçısının sərəncamı ilə, bunadək Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri vəzifəsində işləyən Zaur Rauf oğlu Mikayılov yeni yaradılan Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri təyin edilib.***



Müəyyən edilib ki, Agentlik Azərbaycan Respublikasında suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyətin təşkilini təmin edən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını, eləcə də bu sahədə xidmətlər göstərilməsini təşkil edən, balansında olan su təsərrüfatı obyektlərinin texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirən, yerüstü, yeraltı su ehtiyatlarının, su və su təsərrüfatı obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqini aparan, bu sahələrdə vahid dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Bu fərman çox böyük strateji əhəmiyyətə malikdir. Uzun illərdir ki, su təsərrüfatı sistemində pərakəndəliyin aradan qaldırılması üçün bu sahədə mərkəzləşmiş vahid dövlət orqanının yaradılmasını təklif edirdik. Çünki, dünyada quraqlıq və istiləşmə prosesi davam edir və su böhranı güclənir. Bu səbəbdən də, su təsərrüfatının qaydaya salınması və gözlənilən böhrana hazır olmaq üçün bəzi tədbirlərin həyata keçirilməsi vacibdir.

Dövlət başçının su təsərrüfatının effektiv idarə edilməsi, su ehtiyatlarından sımərəli istifadə, yeni su mənbələrinin yaradılması ilə bağlı fərman və sərəncamları var. Bu istiqamətdə xeyli işlər də görülüb. Su anbarlarının tikintisi, çox sayda artezianların qazılması və s. Lakin bunlar problemin miqyasına adekvat deyil. Dövlət büdcəsindən və kənar fondlardan ən çox vəsait alan təşkilat Azərsudur. Buna baxmayaraq, bu sahədə ciddi naliyyətlər əldə edə bilməyib. Əksinə, bu sahədə vəziyyət bir qədər də çətinləşib. Əgər burada vahid, düzgün və effektiv idarəetmə olsa, su problemini kökündən həll etmək olar.

Beynəlxalq ekoloji və iqtisadi araşdırma mərkəzlərinin proqnozuna görə qarşıdan qlobal quraqlıq və su çatışmazlığı gəlir. Bunun nəticəsində ciddi ərzaq qıtlığı yaranacaq. Belə bir vəziyyətdə isə su ehtiyatları çox olan ölkələr vəziyyətdən çıxa biləcək. Azərbaycan əhali sayına nisbətdə su ehtiyatlarının az olduğu ölkələrdəndir. Azərbaycanda ümumi su ehtiyatı 31, Gürcüstanda 63, Ermənistanda 8 kubkilometrdir. Yerli su ehtiyatlarına gəlincə, ölkəmizdə 10.3, Gürcüstanda 53.6, Ermənistanda 6.5 kubkilometr yerli su ehtiyatı var ki, bunun bir il ərzində hər bir nəfərə düşən hissəsi Azərbaycanda 1.03, Gürcüstanda 13.7, Ermənistanda isə 2.2 min kubmetrdir. Ölkəmizin hər kvadrat kilometrinə 119 min kubmetr yerli su ehtiyatı düşür. Gürcüstanda bu rəqəm 769 min, Ermənistanda isə 218 min kubmetrdir.

Dünyanın 170 ölkəsi arasında daxili su ehtiyatlarının əhali və əraziyə adekvatlığına görə Azərbaycan 140-cı yerdədir ki, bu da çox təhlükəli vəziyyət deməkdir. Azərbaycanın su mənbələrinin təxminən 70 faizinin ölkə sərhədlərindən kənarda formalaşır. Qlobal su böhranı yarandıqda qonşu ölkələr həmin çaylarda su ehtiyatının hamısını özlərinə sərf edəcəklər, bu tərəfə bir qram da su keçməyəcək. Gürcüstan Kürün, Ermənistan Arazın, Rusiya Samurun bütün suyunu özlərinə sərf edəcəklər. Digər kiçik çayların çoxunun da mənbəyi qonşu ölkələrdədir. Bu çox ciddi strateji təhlükədir.

Son vaxtlar yerüstü su mənbələrində ciddi azalma müşahidə olunur. Qabaqlayıcı tədbirlər görülməsə, həm içməli su, həm də suvarmada ciddi problemlər yarana bilər. Bu isə dolayı yolla ərzaq istehsalının kəskin aşağı düşməsinə, ərzaq qıtlığı və bahalaşma yaranmasına səbəb ola bilər.

Bununla bağlı ciddi strateji proqram hazırlanmalı və təcili icrasına başlanmalıdır. Su israfının qarşısı alınmalı, suyun bölüşdürülməsinin uçotuna şəffaf və mükəmməl nəzarət sistemi olmalıdır- həm dövlət, həm də qeyri-hökumət təşkilatları və media tərəfindən. Su anbarlarının və artezian qurğularının sayı sürətlə və kəskin artırılmalıdır.

Vəziyyət hələlik, qənaətbəxş deyil. Amma avantajımız da var. Azərbaycanın su resurslarının çox əhəmiyyətli bir hissəsi (təxminən 30 faizi), həm təbii çaylar, göllər, həm də süni yaradılmış su anbarları işğaldan azad olunmuş Qarabağ bölgəsindədir. Bu regionda yağıntının miqdarı yüksək, çaylar bolsulu və güclü axınlıdır. Bulaqlar çoxdur. Üstəlik, kiçik təbii göllər və böyük süni su anbarları da var. Belə ki, Xudafərin, Qız Qalası, Sərsəng və Suqovuşan su anbarları çox nəhəng tutuma malikdirlər. Bu su ehtiyatı ilə 15-20 rayonda, çox böyük torpaq sahələrində aqrar sektorun suvarma məsələsi və əhalinin içməli su ilə təminatı həll oluna bilər. Lakin yeni su ehtiyatları əldə etməyimiz bizi heç bir halda arxayın salmamalıdır. Sudan qənaətlə istifadə prioritet olmalıdır. Bir sıra ölkələr gözlənilən su böhranı ilə bağlı strateji planlar hazırlayır və icra edir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev keçirdiyi müşavirələrdə bu problemə toxunub, tapşırıqlarını verib. Lakin su təsərrüfatına cavabdeh dövlət orqanları bu tapşırıqları yerinə yetirə bilməyib. Ciddi dəyişiklik hələ ki, yoxdur. Ölkənin içməli su ehtiyatları yenə də istismar edilir, su itkisi 30-40 faizə çatıb. Yerüstü su ehtiyatlarını artırmaq mümkün deyil, təzədən çay yaradası deyilik, dəniz yaradası deyilik. Lakin yeraltı su hövzələrindən bəhrələnməklə və mövcud su ehtiyatlarından qənaətlə istifadə etməklə su böhranının qarşısını almaq olar.

Bundan başqa, hökumət sahibkarlara, fermerlərə kiçik kreditlər verə bilər- su çənlərinin qoyulması, kiçik su anbarlarının tikilməsi, artezian quyularının qazılması, damcılı suvarma sistemlərinin qurulması üçün. İçməli sudan texniki məqsədlərlə istifadə qadağan edilməlidir. Bunun üçün də gərək sahibkarlıq subyektləri, iaşə obyektlərinə texniki suyun verilməsi təmin edilsin. Ümumiyyətlə, su sistemində çox ciddi və kompleks tədbirlərin görülməsi vacibdir. Ölkəmizin ərzaq təhlükəsizliyi də birbaşa bundan asılıdır. Ümid edirik ki, yeni yaradılmış Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi bu sahədə ciddi dönüş yaradacaq, ölkəmizin su və ərzaq təhlükəsizliyinin təmin edilməsinə, əhalinin təmiz içməli su ilə təmin olunmasına töhfə verəcək.

***Elçin Bayramlı***




# "Demokratiya sammiti" geopolitik proyekt kimi

Son günlər dünya mediasında müzakirə edilən məsələlərdən biri ABŞ-ın növbəti dəfə "demokratiya sammiti" keçirməsidir. Təbii ki, bu, birmənalı qarşılanmır, müstəqil ekspertlər - siyasi analitiklər okeanın o tayındakı "demokratiya oyunu"nu ciddi tənqid obyektinə çevirirlər. Xüsusilə də, sammitə dəvət edilənlərin siyahısı mübahisə doğurur.

Bu də təsadüfi deyil. Çünki sammitə bu dəfə də demokratiyadan uzaq, fundamental insan hüquqlarının pozulduğu ölkələrin dəvət alması heç bir məntiqə sığmır, Birləşmiş Ştatların "demokratiya" anlayışının ikili standartlara əsaslandığını göstərir. Bu reallığı nəzərə alan ekspertlər qeyd edirlər ki, sammit Amerikanın qlobal səviyyədə rəqiblərinə qarşı yönəlib. Yəni seçim prosesində əsas meyar həmin dövlətin demokratik olub-olmaması deyil, Ağ Ev administrasiyasının maraqlarına xidmət edib-etməməsidir. İnsan haqlarının kütləvi surətdə pozulduğu Fransa, Hindistan, Ermənistan kimi dövlətlərin sammitdə iştirakı bunun bariz sübutudur.

Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan, kənd və şəhərlərimizi dağıdıb viran qoymaqla kifayətlənməyərək ekoloji, mədəni terror törədən, milli-mənəvi sərvətlərimizi dağıdan Ermənistanın sivil dövlət kimi sammitə çağırılması Amerikanın "demokratiya" anlayışının əsl mahiyyətini göstərir. Digər tərəfdən, Ermənistan o ölkələrdəndir ki, demokratiya sahəsində ciddi böhran yaşanır, insan hüquqları hakimiyyət tərəfindən kobud şəkildə pozulur. Çox uzağa getməyək: elə Ermənistanın antidemokratik simasında zorla "demokrat" imici yaratmağa cəhd edən ABŞ-ın Dövlət Departamentinin 2022-si ildə dərc etdiyi hesabatda da bu ölkədə insan hüquqlarının pozulması halları geniş əks olunub. Departament hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən zorakılıqları, əsassız həbsləri və söz azadlığının məhdudlaşdırılması hallarını təqdim edib. Sual olunur: ABŞ özü-özünümü inkar edir? Sual ritorik, cavab isə aydındır.

Bu kontekstdə hazırda istədiyi dövləti insan haqlarının pozulmasında ittiham edən ABŞ həm özünün, həm də demokratiya aşiqi və carçısı hesab etdiyi dövlətlərin "humanist" davranışlarının yaxın tarixinə ekskurs etsə, məqsədəuyğun olar. Maraqlıdır, demokratik mühitin mövcud olduğu, sivil dəyərlərə əsaslanan sağlam siyasi münasibətlərin hökm sürdüyü Azərbaycan, Türkiyə, Macarıstan kimi ölkələr "demokratiya" zirvəsinə dəvət olunmayıblar. Görünür, bu gün bir sıra ölkələrin, o cümlədən Azərbaycanın müstəqil xarici siyasət yürütməsini həzm edə bilməyən dairələr selektiv yanaşma sərgiləyərək, müxtəlif vasitələrlə təzyiq göstərməyə çalışırlar. Lakin reallıq "demokratiya"dan təsir aləti kimi istifadə edən həmin qüvvələri ifşa edir.

Bütövlükdə, sadalananlar ABŞ-ın "demokratiya sammiti"nin geopolitik proyekt olduğunu, insan hüquqları və azadlıqları, demokratik dəyərlər və ənənələrlə heç bir əlaqəsinin olmadığını göstərir.

# 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Quba Soyqırımı Memorial Kompleksi ziyarət olunub




**Martın 31-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin və partiyanın Xəzər rayon təşkilatının birgə təşkilatçılığı ilə 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Quba Soyqırımı Memorial Kompleksinə səfər təşkil olunub. Əvvəlcə Quba şəhərində müasir müstəqil Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.**

Sonra Quba Soyqırımı Memorial Kompleksi ziyarət olunub. Ziyarətçilər soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad ediblər.

Ziyarətçilərə məlumat verilib ki, erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2009-cu il oktyabrın 30-da imzaladığı müvafiq Sərəncama əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi inşa edilib. 2013-cü il sentyabrın 18-də dövlətimizin başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə bu kompleksin açılışı olub. Quba Soyqırımı Memorial Kompleksi ötən əsrin əvvəlində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımını, etnik təmizləməni, dinc əhalinin amansızlıqla qətlə yetirilməsini faktlarla əks etdirən muzey və kütləvi məzarlıqdan ibarətdir.

# VoMa terror qruplaşması: azyaşlı erməni uşaqları qatil kimi yetişdirilir!



**İKİNCİ YAZI**
**(Əvvəli ötən nömrədə)**

Görünür, bu gün də daxilində aqressiya, işğalçılıq, təcavüzkarlıq, revanşçılıq hisslərinə bağlı insanların olduğu erməni cəmiyyəti əslində bəşəriyyətə zərərli olan bu xəstəlikdən qurtula bilmir. Etiraf edək ki, erməni cəmiyyətində sağlam düşüncəli insanlar da var, lakin belə insanlar təəssüf ki, azdırlar və çoxluq tərəfindən təcrid olunurlar.

Bu gün Ermənistanda "hərbi təlim-tədris mərkəzi" adı altında fəaliyyət göstərən onlarla qruplaşmalar mövcuddur. VoMa, Tiqran Mets (Böyük Tiqran), POGA, Apaqa Zinvor (Gələcəyin əsgəri), ATAN, Feniks və başqaları...






*Böyük rus yazıçısı Anton Pavloviç Çexov deyirdi: "Uşaqlar müqəddəs və pakdırlar. Onları şəxsi kefin oyuncağına çevirmək olmaz"*

Bu kimi "hərbi-patriotik cəmiyyətlər" həm də ondan xəbər verir ki, Ermənistan 44 günlük İkinci Qarabağ müharibəsində aldığı ağır məğlubiyyətindən sonra belə, hələ də doğru yola addım atmaq fikrində qat-qat uzaqdadır. Ən dəhşətlisi isə budur ki, bu kimi hərbi düşərgələrə məhz azyaşlı uşaqlar cəlb edilməkdədirlər. Onlara elə uşaq vaxtlarından irqçilik, azərbaycanlılara və türklərə qarşı nifrət öyrədilir və paralel olaraq silahlardan istifadə diversiya təlimləri keçirilir. Bəli, bu dəhşətlidir!



Ötən yazımda adıçəkilən qruplaşmaların mahiyyətləri barədə geniş izahatlar verilib. Lakin bu yazıda yuxarıda adları çəkilən qruplaşmaların fəaliyyət mexanizmlərinin dərinlikləri barədə məlumatlar qeyd olunacaq.

Beləliklə, bu düşərgələrin içində ən populyarı VoMa-dır. Bu təxribat-diversiya qruplaşması böyüklərlə yanaşı, uşaqları da təlimlərə cəlb edir və daha bir məqamı da xatırlatmaq yerinə düşərdi - VoMa 44 günlük müharibə zamanı hərbi əməliyyatlarda iştirak etmək üçün xarici ölkələrdən muzdlu döyüşçüləri verbovka edirdi. Hərbiləşdirilmiş VoMa təxribat-diversiya təlim-tədris mərkəzi hələ 2014-cü ildə təsis edilmişdi. Ona rəhbərliyi Vova Vartanov edir. O, bir vaxtlar SSRİ-nin "QRU"sunda və xüsusi təyinatlı dəstədə fəaliyyət göstərib, sonradan isə diversant olaraq döyüşlərə qatılıb. Vartanov bir vaxtlar Ermənistanı İŞİD-lə əməkdaşlıq etməyə çağıran şəxslərdəndir və o, eyni zamanda Hitlerin təcrübəsindən də istifadə etdiyini gizlətmirdi. Hələ Qarabağ separatçıları yeni-yeni üzə çıxmağa başlayarkən Vartanov "özünümüdafiə" adı altında silahlı ekstremist dəstələri yaradaraq 1989-cu ildə fəaliyyətə başlamışdı. Birinci Qarabağ müharibəsi dövründə o hərbi dəstələrin sıralarında yüzlərlə azərbaycanlının tökülən qanlarına baiskar olmuşdu. Həmçinin məlumdur ki, Vartanov Naxçıvanlı kəndində dislokasiya olunaraq 25-26 fevral tarixlərində Xocalı sakinlərinin deportasiyalarında və soyqırımına məruz qoyulmalarında iştirak etmişdi.

Vartanov YouTube vasitəsi ilə yaydığı çoxsaylı videolarında Azərbaycanda yaşayan milli azlıqları hakimiyyətə qarşı silahlı qiyama çağırıb. 44 günlük müharibədən əvvəl o bildirirdi ki, ermənilər yeni əraziləri işğal etməli və Ermənistanın Azərbaycanla sərhədi Kür çayı ilə bölünməlidir.

Vartanov İkinci Qarabağ müharibəsinə qədər bir neçə dəfə Kəlbəcərdə, Laçında xarici ölkələrdən gəlmiş ermənirə diversiya təlimləri keçib. Bu baxımdan, həm 44 günlük müharibədə, həm də 2016-cı ilin Aprel müharibəsində VoMa silahlı qruplaşma olaraq aktiv iştirakçılardan birinə çevrilib.

Azərbaycanın Baş prokurorluğu tərəfindən müəyyən edilib ki, VoMa internet resursları vasitəsi ilə tərkibinə erməni millətindən olan xarici vətəndaşları qatıb. Bu qruplaşmalara hətta PKK üzvləri də daxil olublar. Və bu gün də VoMa Ermənistanda bənzər fəaliyyətini rahatlıqla davam etdirir və əsasən öz gücünü azyaşlı uşaqların cəlb edilməsinə tərəf yönəldir. Faktiki olaraq cinayətkar hesab edilən bu şəxs xüsusilə 10-14 yaşlı uşaqların beyinlərinin yuyulması ilə məşğul olur. Hətta daha kiçik yaşlı uşaqlara azərbaycanlıları və türkləri öldürmək təlimləri keçirilir, onlar poliqonlarda gecə və gündüz səhra xarakterli həyata alışdırılırlar. Bu isə həm də onu sübut edir ki, Ermənistanda olan militarizm günahsız uşaqların həm oyunlarını, həm də gələcəklərini əlindən alır. Nəticədə onların gələcəklərinə bədbəxtlik möhürü vurulur.

Daha bir terror-diversiya mərkəzi Tiqran Mets adlı qruplaşmadır. Bu qruplaşma 2018-ci ildən fəaliyyət göstərir, rəhbəri isə erməni polkovniki Koryun Qumaşyandır. Məsələn, o 2021-ci ilin 6 iyununda Ermənistanın "Noyan Tapan" agentliyinə verdiyi müsahibəsində etiraf etmişdi ki, şəxsən o və qruplaşma üzvləri Kəlbəcər və Laçın rayonlarında 500-600 hektar ərazilərdə minalar basdırıblar.




Növbəti diversant-terrorçu təşkilatının adı POGA-dır. Bu qruplaşma da antitürk terror qrupu olaraq fəaliyyət göstərir. Məlumatlara görə, adıçəkilən terrorçu məktəbi radikal millətçilik əsasında qurulub və erməni diasporunun maliyyəsi hesabına fəaliyyətdədir. Onlar Avropadan və Yaxın Şərqdən silahlıları öz daxillərinə cəlb edir, habelə azyaşlı uşaqları gələcəyin terrorçuları kimi hazırlayır.




POGA 2021-ci ilin 29 mart tarixindən müxtəlif yaş həddi qruplara təlimlər keçir. Kimlər ki, POGA-nın təbliğatını aparırsa, onlara əlavə olaraq 100 dollar məvacib ödənlilir. Bu qruplaşma hətta Moskva-İrəvan aviabiletlərinin ödənilməsini də öz üzərinə götürüb.

Digər terror qruplaşması Apaqa Zinvordur. Bu qruplaşma əsasən yeniyetmələrə və gənc nəslin nümayəndələrinə Azərbaycana qarşı düşmənçilik motivasiyasını təbliğ edir. Maraqlıdır ki, bu qruplaşmanın sosial şəbəkədəki müəllifinin profili ABŞ-ın Los-Anceles ştatı olaraq göstərilir. Buradan da aydın olur ki, onun maliyyəsi haradan və necə qaynaqlanır. O cümlədən, ATAN adlı terror hazırlığı mərkəzi də var ki, bu təşkilat öz hədəfləri üçün ən kiçik uşaqlardan istifadə edir. Hələ 2021-ci ildə ABŞ-ın Washington Examiner nəşrində amerikalı jurnalist Nila Hauerin reportajı dərc olunaraq qeyd edilmişdi ki, 2021-ci ilin yanvarında ABŞ hərbi hava qüvvələrinin veteranı, Aram adlı erməni mənşəli hərbçi Ararat (Zəngibasar-R.R.) sərhədyanı qəsəbəsində Feniks - hərbi-hazırlıq məktəbi açmışdı. O, azyaşlı uşaqları bu məktəbə cəlb edərək açıq şəkildə bildirirdi ki, erməni uşaqları Azərbaycana qarşı müharibəyə daim hazır olmalıdırlar. Qeyd edilib ki, Aram aktiv şəkildə Suriya terrorçularının praktikası təlimlərini keçir. O, əslən livanlı-erməni mənşəli olsa da 13 il ABŞ-ın HHQ-də xüsusi təyinatlı zabiti olaraq çalışıb və xüsusilə, İraqda, Əfqanıstanda və Mərkəzi Afrikada keçirilən missiyalarda iştirak edib. Qarabağda müharibə başlayanda isə qanunsuz silahlı dəstə toplayaraq Azərbaycana qarşı döyüşüb. Onun instruktorları arasında digər ölkələrin də hərbi mütəxəssisləri fəaliyyət göstərirlər - livanlılar, fransızlar, rusiyalılar, suriyalılar. Onların hər biri separatçıların cinahında döyüşüblər.

Beləliklə, faktlar göz önündədir və bu gün bənzər diversiya və terror məktəbi olaraq fəaliyyət göstərən belə təşkilatların yalnız regiona deyil, həm də dünyaya hansı təhlükələrin yaratdığını bəri başdan ehtimal edə bilərik. Fakt budur ki, bu quplaşmalar iddia etsələr də ki, onlar sadəcə hərbi hazırlıq kursları keçirirlər, lakin görünən həm də budur ki, onlar bəşəriyyətə qarşı yeni terrorçular yetişdirirlər - erməni azyaşlılarından...

**Rövşən RƏSULOV**

ARAŞDIRMA-FOTOFAKT

# Heydər Əliyev-100

# "ŞƏHİD ƏBƏDİ QALIR"



***Öz müstəqilliyi və tərəqqisi üçün, öz şöhrətinin ən parlaq illəri üçün Azərbaycanın əbədi borclu olduğu Ulu Öndər Heydər Əlirza oğlu Əliyevin zəka və iradəsinin varisi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin şərəfinə.***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:**
- Mən yenə də deyirəm, ömrün əvvəli də, sonu da var, heç kim həyatda əbədi qalmır. Amma şəhid olmaq, bu, doğrudan da xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır.

**(Müəllifin "YAZDIR, ŞƏHİD ANASI" poemasının davamı-son)**



## Valeh Sefiyev

Bu yerdə, bu məqamda
Sözü var vicdanın da.
O şəhid balamızın
Xidmətləri yanında
Mənim şeir yazmağım,
Uğurlar qazanmağım -
Karım, kəramətlərim -
Sənətkar xidmətlərim
Bu yurdda, bu ocaqda
Qızıl qanımız hopan
Bu ulu, bu müqəddəs,
Bu qüdrətli torpaqda
Dolanıb dəyişsə də
Adamlar nəsil-nəsil
Ümmanda bir damla da
Şərafətində deyil.
Belə ahıl yaşımda :
Artıq köçümü çatıb
İşıqlı dünya ilə
Vidalaşan vaxtımda ;
Yığışıb, hazırlaşıb
Köhnə tanışlar ilə
Halallaşan vaxtımda
Nə yorğunam, nə üzgün,
Qalıq, boynumun yükü
Yoxdur bir başqa işim.
Mənim sənə bəxşişim,
Hədiyyəm, payım, bu gün
Əzəmət, vüqar dolu,
Təravət, bahar dolu,
Vur-tut beş-altı kəlmə
Sözdür, Şəhid Anası !

...44 günlük o döyüş
Bizim xalqımız üçün
Namus məsələsiydi,
Qeyrət məsələsiydi,
Şərəf məsələsiydi.
Döyüş meydanlarında
"Ya qələbə, ya ölüm!" -
Bizim bu şüarımız
Təmiz əqidələrin,
Vicdanların səsiydi,
Əjdadların səsiydi.

Kainat titrəyirdi -
Yer-Göy uğuldayırdı,
Gur-gur guruldayırdı -
Sabahın məramını
Göy Yerdən soruşurdu.
Bu müqəddəs davada
Sravi əskər kimi
Türkün hərb dahiləri,
Siyasət dahiləri
Atatürkün, Heydərin
Ruhu da vuruşurdu.

Şükürlər olsun qisas
Qalmadı qiyamətə,
Gücümüzə inandıq,
Güvəndik, arxalandıq,
Biz qələbə qazandıq.
Düşməni təslim etdik ! -
Darmadağın elədik -
"Bacıları" qarışıq
Susdurduq, heç kim etdik.
Şükürlər olsun qisas
Qalmadı qiyamətə -
Çatdıq şana, şöhrətə.

...Sən mətanət, güc, qüdrət,
Ləyaqət aynasısan.
Sən Ölkə Ağbirçəyi,
Sən Vətən Anasısan.

"Şəhid əbədi qalır !" -
O, NƏCİB, NƏCABƏTLİ,
XEYİRXAH, NƏZAKƏTLİ
SEYİD XANIMI İLƏ
Ocağının başında
Bunu RƏHBƏR söylədi.
O, Ali Baş Komandan -
Bütöv Azərbaycanın
Əbədi Qəhramanı,
Fəxri, Şöhrəti, Şanı
O, Müzəffər söylədi.
Gözümüzün işığı
O, Münəvvər söylədi, -
Qüdrət, Hünər söylədi, -
Rəhbər müdrikcəsinə
Qətiyyət ilə dedi.
Şərəfli anamıza
Böyük ehtiram ilə,
Çox hörmət ilə dedi
Rəhbər açıq, sərt dedi,
Gəldi-gedər dünyünün
Düz gözünün içinə
Düz danışdı, mərd dedi
Rəhbər açıq, sərt dedi :
-Yaranışdan bu dünya
İnsanları sınamır.
Yaxşı-yaman axtarmır,
Doğma, ögey tanımır.
Eyni əzəmət ilə,
İzzət, hərarət ilə
Hamını qarşılayır.
Başı üstündə durub
Saat, saniyə sayır.
Vədə, vaxt çatan kimi
Hamını yola salır.
Dünya nə yüngülləşir,
Nə də səhmana düşür.
Gözü məhşər yolunda,
Əli qaşında qalır.
Hesab soruşmur bizdən.
Nə gəlir əlimizdən!? -
Bu, qədərin işidir,
Haqqın göstərişidir.
Köhnə dostu, tanışı
Xoşbəxtliklə yanaşı
Əcəl havada süzən
Bizi axtaran, gəzən
Alov dilli bir oxsa;
Xoşumuz gəlir-gəlmir? -
Gülüb-oynadıq, yoxsa
Ağladıq həzin-həzin
Yaradanın, sübhanın
Rəhm eləyən rəhmanın,
O gözə görünməzin
Hökmü, qərarı budur.
... İnsan hər dərdə dözür,
Hər ağrını unudur.
Ancaq şükür, min şükür:
Nəsillər yola salır,

ŞƏHİD ƏBƏDİ QALIR !

Şəhid əbədi qalır ! -
Şad- xuraman yaşayır,
Əbədi ömür sürür,
Əbədi xatırlanır ;
Sevilir, əzizlənir,
Diqqət, etibar görür.
Şəhid əbədi qalır ! -
Sabahlar, gələcəklər,
Nurlu, rövşən ürəklər
Ondan güc-qüvvət alır,
Ona hesabat verir.
Günəşdən də işıqlı
Həqiqətimiz üçün,
Ləyaqətimiz üçün
Vətən sevgisi ilə
Düz ölümün üstünə
Mərdü-mərdanə gedən,
Canını fəda edən
İgidlərin həyatı,
Əzmi, müqəddəratı...
Qaranlıq zamanlarda
Vəhşi biyabanlarda
Daş üstündə yazılmış,
Həkk olunmuş, qazılmış
Üzünü yosun örtən,
Toz basan, ovsun örtən
Köhnə hekayət deyil,
Nağıl, rəvayət deyil.
Öz parlaq adı ilə,
Qaynar həyatı ilə
Şəhid əbədi qalır !..

-Vəfa, etibar nədir?
-Düz söz, düz ilqar nədir?
-Vətən sevgisi ilə,
Haqqın ülgüsü ilə
Yaşamaq çətindirmi ?
-Hər döşünə döyən "dost",
"Mənəm! mənəm!"- deyən "dost"
Yenilməz, mətindirmi?
-Azad vətənimizdə
Nəfsin qulu olmağa,
Yetimin malı ilə
Cibi dolu olmağa
Bu gün ehtiyac varmı?
-Doğru yolunu azan -
Özgəyə quyu qazan
Özü nicat taparmı ?
-Sən fədakar vicdanın
Tənə yağışlarından,
Leysan qarğışlarından
Qoruna bilirsənmi ?
-Qızğın hərb meydanında
Sən son bir damla qanın
Qəhraman şöhrətini -
Gücünü, qüdrətini
Zorunu bilirsənmi ?..

...Şəhid əbədi qalır ! -
Bu sorğu-sual ilə,
Yüksək ideal ilə
Sabahı aydın görür -
Nə qan, nə qırğın görür.
Təfsilat, izah verir...
Vətən balalarından -
Vətənin topdağıtmaz
Rəşid qalalarından -
Vətən balalarından
O, imtahan götürür.
Şəhid əbədi qalır ! -
Vətənin xoş günləri
Hamımızdan daha çox
Ona sevinc bəxş edir,
Ona fərəh gətirir.
Bu yurdda, bu ocaqda,
Qızıl qanımız hopan
Bu qocaman torpaqda
Dəyişmir nırxı dünya ;
Fələyin çarxı dünya
Yenə işini görür -
Köhnə işini görür :
Nəsillər yola salır, -
Ancaq şükür, min şükür
Şəhid əbədi qalır !..

...Sözlərin aydın duru ;
Bütün həyatın boyu
Sinəndə bu qüruru,
Bu işığı, bu nuru
Alnıaçıq, fərəhlə
Gəzdir, ŞƏHİD ANASI !

Nahaq yerə, boş yerə
"Nüfuz"lara, "Güc"lərə
Güvənib, arxalanıb,
Onların məkr dolu
Riyakar vədlərinə
Bel bağlayıb, inanıb
Çox çapıldıq, talandıq...
Doğrandıq, baltalandıq...

Çox tənələr eşidib,
Soyuqlayıb, üşüdüb
Dişimizi sıxmışıq.
Haqq işimiz naminə -
Şərəfimiz naminə
Hər ağrıya, acıya
Qürurla sinə gərib,
Fədakarlıq göstərib
Qəvi, qəddar düşmənin
Axırına çıxmışıq.

Deyirsən : bu il bir az
Tez ötüb keçdi ayaz. -
Düzdür, şəhid anası

Günəş salama gəlir,
Torpaq da üzə gülür, -
Yazdır, ŞƏHİD ANASI!

# “Laçın rayonunun işğalı AXC-Müsavat mənfur cütlüyünün növbəti çirkin xəyanəti idi”



***Artıq iki ildən çoxdur ki, tarixi Zəfərimizin sevincini yaşayırıq. Hər bir uğur onun hansı səylərin, qətiyyətin sayəsində əldə olunmasını təhlil etməyi bir tələb kimi qarşıya qoyur. Bu günlərdə dövlət başçısı İlham Əliyev Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar qəbul edərkən bir daha diqqəti müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizdə mövcud olan hərbi-siyasi vəziyyətə yönəltdi. Bu həqiqəti xüsusi vurğuladı ki, Şuşanın işğalından bir neçə gün sonra Laçın rayonunun düşmən tərəfindən zəbt edilməsi AXC-Müsavat xəyanətkar cütlüyünün növbəti çirkin xəyanəti idi.***

Həmin dövrdə bədnam AXC-Müsavat cütlüyü istənilən yollarla hakimiyyəti zəbt etməyə çalışırdı. AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində torpaqların Ermənistan tərəfindən zəbt olunması onların bu çirkin niyyətlərinə çatmaları üçün bir fürsət idi. Bu vətən xainləri hesab edirdilər ki, əgər Azərbaycan xalqı böyük bir sarsıntı keçirərsə, onlar üçün əlavə şanslar yaranacaq. Çox təəssüf ki, belə də oldu. Şuşanın, onun ardınca Laçının işğal altına düşməsi Azərbaycanda ciddi siyasi böhrana səbəb oldu. AXC-Müsavat xəyanətkar cütlüyü fürsətdən istifadə edərək Laçın işğal olunandan bir ay sonra hakimiyyəti qanunsuz yollarla zəbt etdi və bu, daha böyük faciələrə yol açdı. Heç bir il keçməmiş - 1993-cü ilin aprelində Kəlbəcər işğal olundu. Beləliklə, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi ilə Ermənistan arasında coğrafi bağlantı yaradıldı. Bu, Azərbaycanın Birinci Qarabağ müharibəsində məğlubiyyətini şərtləndirən əsas amil oldu. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə bildirib ki, çoxəsrlik tariximizin hər bir səhifəsinin mütəmadi olaraq vərəqlənməsi gələcəyin düzgün müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Müstəqilliyimizin bərpasının ilk illərində hakimiyyətsizlik Azərbaycanın böyük faciələrlə üz-üzə qalmasında əsas amil idi. Ölkədə xaos, anarxiya, özbaşınalıqlar hökm sürür, ictimai-siyasi durum günbəgün pisləşir, ən əsası silahlı qüvvələrin torpaqlarımızın deyil, ayrı-ayrı qrupların maraqlarının müdafiəsinə xidmət etməsi, hakimiyyətdə olan ünsürlərin kreslo davası ərazilərimizin işğalında mühüm rol oynayırdı. Bu faciələr tariximizin qara səhifəsi kimi daim vərəqlənir. Bu baxımdan ki, ölkədə siyasi dialoq mühitinin daha da təkmilləşdirildiyi, siyasi partiyalar arasında əlaqələrin qurulmasına çağırışların edildiyi, tarixi Zəfərimizin reallıqlarına uyğun qarşıya qoyulan vəzifələrin uğurla icra edilməsi üçün əqidəsindən, siyasi mənsubiyyətindən asılı olmayaraq vətəndaş birliyinin möhkəmləndirilməsinin tələb olunduğu hazırkı dövrdə məhz o illərdə iqtidarda olan ünsürlər xəyanətkar əməllərindən nəticə çıxarmaq əvəzinə, yenə də bütün təşəbbüslərdən kənarda qalaraq yalnız və yalnız Azərbaycanın imicinə xələl gətirmək üçün yollar axtarırlar. Bu ünsürlərdə cəsarət deyilən keyfiyyət olsaydı, özlərinin xəyanətkar əməllərini etiraf edib çoxdan siyasi meydandan uzaqlaşardılar.

Vüqar Rəhimzadə onu da bildirib ki, Azərbaycan dövləti bədnam AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründəki yarıtmaz siyasətinin hər bir uğursuzluğunu aradan qaldırmaq üçün illərdir səylər göstərir. Əgər 1993-cü ildə ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı bu gün Azərbaycan adlı dövlətdən danışmaq belə mümkün olmazdı. Dahi şəxsiyyət hakimiyyətə qayıdışı, düşünülmüş və məqsədyönlü siyasəti ilə Azərbaycanı bir dövlət kimi tarix səhnəsindən silinməkdən xilas etdi. Azərbaycanın inkişafı, dirçəlişi, torpaqlarımızın işğaldan azad edilməsini şərtləndirən amillərin təmin olunması üçün Ümummilli Liderin rəhbərliyi ilə ölkəmiz böyük bir inkişaf yolu keçdi. Azərbaycan yenidən quruldu, iqtisadi, siyasi mövqeyi möhkəmləndi, ordu quruculuğu sahəsində davamlı addımlar atıldı, informasiya cəbhəsində üstünlüyümüzün təmin olunması üçün ölkəmizin ətrafında yaradılan informasiya blokadası yarıldı. Son 20 ildən artıq dövrün reallıqlarına nəzər salsaq ulu öndər Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində torpaqlarımızın işğaldan azad edilməzinə hazırlıq işlərinin, daha sonra isə Vətən müharibəsində qazandığımız Zəfərin reallıqları əsasında azad edilmiş ərzilərimizdə bərpa-quruculuq mərhələsinin uğurla davam etdiyini görərik.

Bütün bunları xalqımızın xoşbəxtliyi kimi səciyyələndirən YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, Vətən torpaqlarını Ermənistanın işğalından azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan Bayrağını yağı düşməndən təmizlənmiş ərazilərimizdə ucaldan cənab İlham Əliyev böyük fəxr və qürur hissi ilə ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpa edildiyini bildirir. Ölkə Prezidenti hələ 2021-ci ilin yanvarında Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bu çağırışı etmişdi ki, hər kəs bilməlidir, torpaqları satan kimdir, torpaqları əsarətdən qurtaran kimdir.

Vüqar Rəhimzadə bildirib ki, tarix heç zaman unudulmur. Əksinə keçmişə baxaraq, tariximizin səhifələrini vərəqləyərək ondan dərs almağa çalışmalıyıq. Müstəqilliyimizin bərpasının ilk illərində ölkəmizdə mövcud olan vəziyyət onun səbəbkarlarının yaddaşından "silinsə" də tarix hər zaman bu xatırlatmaları onlara çatdırmağa yardımçı olur. Vaxtilə şəxsi ambisiyaları, hakimiyyət hərislikləri ucbatından torpaqlarımızı satan qüvvələr xalqımıza Zəfəri yaşadan, qürurumuzu özümüzə qaytaran, üçrəngli bayrağımızın işğaldan azad edilmiş bütün torpaqlarımızda dalğalanmasını təmin edən qalib ölkənin qalib Prezidenti İlham Əliyevə minnətdar olmalıdırlar. Bu gün işğaldan azad edilmiş ərazilərimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tərəqqi dövrünü yaşayır. Yeni idarəetmə üsulu tətbiq edilir. Dövlət başçısı İlham Əliyev Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsini qəbul edərkən belə bir əminliyi də ifadə etdi ki, yeni idarəetmə modeli təkcə azad edilmiş ərazilərin yox, bütövlükdə ölkəmizin hərtərəfli inkişafına böyük töhfə verəcək.

# “Xalqımız bu faciəli tarixi unutmur”




“XIX-XX əsrlərdə ermənilər azərbaycanlılara qarşı zaman-zaman soyqırımlar törətmişdir. Bu soyqırımların törədilməsində məqsəd azərbaycanlıları öz doğma torpaqlarından qovmaq, qətlə yetirməklə etnik təmizlənməyə məruz saxlamaqla öz çirkin arzusuna çatmaq olmuşdur”. Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.

Onun sözlərinə görə, bu çirkin niyyət dənizdən dənizə böyük Ermənistan yaratmaq kimi sərsəm arzularını reallaşdırmaq istəyi ilə bağlıdır: “Ona görə də təkcə 1918-ci ilin mart-aprel aylarında erməni daşnakları bolşevik qoşunları ilə əl-ələ verərək Azərbaycanın Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə kütləvi qırğınlar törətmişdir. Bu dövrdə Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar”.

Deputat sözlərinə belə davam edib: “Ermənilərin məqsədi Azərbaycanı bütün milli azlıqlardan da təmizləyərək bu ərazilərə erməni toxumu səpmək olmuşdur. Ona görə də on minlərlə azərbaycanlı ilə yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış milliyyətinə mənsub insanları qılıncdan, süngüdən keçirərək diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və mədəni abidələri dağıtmışlar.

Qubada tikinti işləri zamanı aşkar olunmuş kütləvi məzarlıq erməni soyqırımın əyani sübutudur. Bu məzarlıqda müxtəlif işgəncələrlə qətlə yetirilmiş insanların 500-dən çox kəllə sümükləri müəyyən olunmuşdur. Dəhşətlisi odur ki, kəllə sümüklərin tibbi ekspertizası zamanı insanları küt alətlərlə qətlə yetirildiyi, o cümlədən kəlləyə mismar vurulmuş hallar da müşahidə olunmuşdur. Bu, ermənilərin Azərbaycanda yaşayan bütün millətlərə olan nifrətdən irəli gəlirdi. Təəssüf ki, acı tariximiz davam etdi və erməni vəhşiliklərini müasir tariximizdə də yaşamağa məhkum olduq. Belə ki, 90-cı illərdə torpaqlarımızın işğalı zamanı ermənilər yenə də Xocalıda və digər yaşayış məntəqələrdə 1918-ci ilin soyqırımını təkrarlamışlar. Xocalı soyqırımında hətta öldürülmüş cansız meyidlər təhqir olunmuşdur. Təbbi ki, bu ermənilərin vəhşi bir qəbilə olduğunun göstəricidir.

Ulu Öndər Heydər Əliyevin 1998-ci il 26 martda imzalanmış “Azərbaycanlıların soyqırımı” haqqında fərmanı ilə 1918-ci ildə ermənilərin törətdiyi insanlığa xas olmayan vəhşiliklərə siyasi qiymət vermiş oldu.

Prezident İlham Əliyevin sərəncamı ilə 2009-cü ildə Qubada “Soyqırım memorial kompleksi” abidəsi tikilmiş və 2013-cü ildə bu abidənin açılışında ölkə başçımız qeyd etmişdir: “1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir. Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməlidir. Xalqımız bu faciəli tarixi unutmur və 1998-ci ildən başlayaraq hər il 31 martı “Azərbaycanlıların Soyqırımı Günü” kimi qeyd edilir. Allah soyqırımların bütün qurbanlarına rəhmət eləsin!”.

***Ayşən Vəli***



# Normalımız niyə anormallaşdı?

**Lalə Mehralı**

***Həm real, həm virtual dünyada çox insanla və bir o qədər də çox davranışlarla rastlaşırıq. Əksər hallarda müşahidə etdiyimiz bir çox davranışın, əslində, niyə edildiyinin fərqinə varmırıq. Bəzi davranışlar isə bizə təsir edir, doğru olmadığının fərqində oluruq və bu davranışın niyə edildiyini düşünürük. Çünki indi bir çoxuna adi bir şey kimi gələn davranış bəzilərimizə absurd təsiri bağışlayır.***

Sizə mənfi təsir edən davranışlardan bəhs etmək istədikdə, ətrafınızdan “nə itirib nə axtarırsan”, “gör nəyə fikir verirsən”, “sənin psixologiyan pozulub”, “əsəbisən” kimi məzəmmətlər eşidirsiniz, doğrudur? Məndə də elə hallar olur. Bəzən çox düşünürəm, cəmiyyət bu anormallıqları normal hesab etməzdən əvvəl dünya necə də gözəl bir yer idi, yaşamaq onda necə gözəl idi. Amma içimdə qalır düşüncələrim, çünki ətrafdakılara bəhs edəndə adama zombi kimi baxırlar. “İnternetin olmadığı dövrdən ötrü necə darıxmaq olar?”, “mobil telefonsuz yaşamaq dəhşət olardı”, “ağ-qara televizordan ötrü darıxırsansa sən dəlisən” deyir insanlar.

Çox az müddət ərzində qeyri-normal olan bütün davranışlar adi hala çevrildi, anormal bildiyimiz nə varsa cəmiyyət tərəfindən dəstəklənir. Efirdə özünə ər ya arvad axtaranlar, arvadını başqa kişi ilə tutub videosunu çəkib efirdə nümayiş etdirənlər, bir-birinin bütün paxırını milyonların gözü önündə açıb sonra heç nə olmamış kimi həyatlarına davam edənlər Biz daha nələr görəcəyik? Daha immunitet yaranıb bədənimizdə, əvvəl bizi dəhşətə gətirən şeylər indi normal gəlir. Qeyri-normal vəziyyətlər normallaşdıqda, anormal davranışlara göstəriləcək reaksiyalar da yoxa çıxır. Eynilə indi sizə nəql edəcəyim əhvalatda olduğu kimi

Qədim zamanlarda, normalın anormallıq hesab olunmadığı dövrdə bir obaya xəbər yayılır ki, yaxın vaxtlarda suyun tərkibi dəyişəcək, insanlar o sudan içib hər şeyi tərsindən anlayacaqlar, bütün normal şeylər anormallıq hesab ediləcək. Buna bütün el gülür, cəfəngiyat hesab edirlər. Deyilənlərə bir gənc biganə qalmır, su anbarı düzəldib xeyli su tədarük edir və yalnız özü topladığı sudan içir.

Vaxt-vədə yetişir, günlərin bir günü gənc görür ki, bu obada hamı hər şeyi tərsinə edir, əyriyə düz, düzə əyri deyirlər, bütün normal şeylər anormallıq hesab edilir. Bu günədək doğru bilinənlər yalnış olub, əyrilər düz olub. Anormal hərəkətlər tamamilə normal qəbul edilir. İnsanlara başa salmağa çalışılır, heç kim başa düşmək istəmir, əksinə, hamı ona dəli kimi baxır. Gənc bu anormallaşan cəmiyyətlə mübarizə aparır, lakin nəticə olmur, təkdir axı. O da axırda dözmür, özü tədarük etdiyi suyundan yox, bütün obanın içdiyi sudan içir. Palaza bürünür yeni

İndi də cəmiyyətdə özünə su toplayıb içənlər var, o gənc tək idi, amma indi çoxdur onun kimilər, üstünlükləri də budur. Nə qədər dözəcəklər allah bilir, amma yaxın illərdə onlar da hamının içdiyi sudan içəcəklər. Məcbur qalacaqlar. Az qalıb...

*XX əsr boyu ermənilər Azərbaycan xalqına qarşı dəhşətli soyqırımı cinayətləri törətmişlər. Məqsədləri işğalçılıqla tarixi torpaqlarımızda "böyük Ermənistan" yaratmaq olan qonşuluqdan kənar olmuşlar xülyalarını reallaşdırmaq üçün ardıcıl olaraq istər hərbi, istərsə də ideoloji vasitələrdən istifadə etmişlər. Azərbaycanın ayrı-ayrı bölgələrində həyata keçirdikləri soyqırımları, deportasiyalar, qanlı cinayətlər zaman-zaman soydaşlarımızın faciələrlə üzləşməsi, həyatlarını, yurdlarını, ev-eşiklərini itirmələri ilə nəticələnmişdir. Bu soyqırımları qədim Naxçıvan torpağını da əhatə etmiş, düşmən bu strateji bölgənin işğalı üçün min bir hiyləyə əl atmış, arzusuna çata bilməsə də, minlərlə soydaşımızın qətlinə, minlərlə qədim tikililərin məhvinə səbəb olmuşlar ki, bu gün də tarixi vərəqlədikcə həmin səhifələr qan qoxur.*

# NAXÇIVAN: dəfələrlə soyqırımına məruz qalan qədim torpaq







### Əsrin əvvəlindən başlanan faciə

Tarixi mənbələrdə ötən əsrin 1905-ci ilinin may ayından etibarən Naxçıvan qəzasında da ermənilərin azərbaycanlılara qarşı qətllərinin başlanması faktları yer alır. Onların Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Yaycı, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa yaşayış məntəqələrini əhatə etmişdir. Ermənilər 1905-ci il noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını qarət etdikdən sonra od vurub yandırmışlar. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər məhv edilmişdir. Noyabrın 30-da isə Cəhri kəndi yandırılmışdır. Həmin gün Naxçıvana gəlmiş İrəvan general-qubernatoru Paskeviç hadisələrin təfsilatı ilə maraqlanmamış, Cəhri kəndi tamam yanıb qurtarandan sonra, dekabrın 2-də kəndə yollanmış, naxçıvanlıların haqlı şikayətləri ilə bir daha qarşılaşmamaq üçün gecə ikən qatarla İrəvana qayıtmışdır.

Ermənilər azərbaycanlılara qarşı qanlı soyqırımı və deportasiya siyasətinin ilk mərhələsini çarizmin fəal dəstəyi ilə 1905-1907-ci illərdə həyata keçirmişlər. Hadisələr nəticəsində Bakıda və Naxçıvanda, Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında yüzlərlə azərbaycanlı kəndi dağıdılmış, on minlərlə günahsız insan erməni vəhşiliyinin qurbanı olmuşdur. Çarizmin ermənilərin vasitəsi ilə yürütdüyü milli qırğın siyasətinin nəticəsi əhalinin demoqrafik vəziyyətində öz əksini tapmışdır. 1897-ci ildə İrəvan quberniyasında azərbaycanlıların sayı 313176 nəfər olduğu halda, 10 il sonra, 1907-ci ildə 302965 nəfər qalmışdı. Deməli, qırğınlar nəticəsində təkcə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımından 10 mindən artıq azərbaycanlı məhv edilmişdi. İrəvanda rusca nəşr edilən "İrəvan quberniyasının 1908-ci il üçün yaddaş kitabçası"nda İrəvan quberniyasının 242 kəndində 65149 nəfəri türk, 5579-u kürd olmaqla, cəmi 70728 müsəlmanın öldürüldüyü göstərilir. 1897-1907-ci illərdə təkcə Naxçıvanda azərbaycanlı əhalinin sayı 31279 nəfər (34,6 faiz) azalmışdı. Əhalinin təbii artımını da nəzərə almaqla, 1905-1907-ci illər soyqırımı nəticəsində təkcə Naxçıvanda azərbaycanlıların sayının təxminən iki dəfə azaldığını söyləmək olar.

Azərbaycanlılara qarşı soyqırımı və deportasiyanın ilk kütləvi mərhələsini təşkil edən 1905-1907-ci illərdə ermənilər, Bakı da daxil olmaqla, Azərbaycanın bir çox bölgələrində, o cümlədən Naxçıvanda azərbaycanlılara qarşı açıq-aşkar milli qırğın həyata keçirmişlər. Dinc azərbaycanlı əhalinin zəif silahlandığı, bunun müqabilində isə hərbi-siyasi cəhətdən çar məmurları tərəfindən hər cür himayə olunan ermənilərin getdikcə daha da azğınlaşması nəticəsində Naxçıvan erməni vəhşiliyi ilə üz-üzə qalmışdı. Bölgənin Naxçıvan, Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və digər onlarla şəhər və kəndlərinin əhalisinə vəhşicəsinə divan tutulmuşdur. Bütün bunlar onu deməyə əsas verir ki, xalqımıza qarşı yürüdülən etnik təmizləmə siyasətinin vüsət aldığı elə ilk mərhələdən ermənilərin işğalçılıq planlarında Naxçıvan həmişə əsas yerlərdən birini tutmuşdur.

### İrəvandan sonra Naxçıvan arzusu

Başqa bir tarixi mənbədə isə qeyd olunur ki, 1918-ci il mayın 29-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərə¬findən İrəvanın ermənilərə güzəştə gedilməsindən sonra onlar Naxçıvanı ələ keçirmək üçün daha da fəallaşmışdılar. Həmin zaman Amerika Birləşmiş Ştatlarının bölgədə rolunun artması erməniləri daha da şirnikləşdirirdi. Naxçıvana təzyiqlər artırdı, buna görə də bölgəni ermənilərin işğalından qorumaq üçün əhalinin təşəbbüsü ilə 1918-ci ilin noyabrında Araz-Türk Respublikası yaradıldı. Çox geniş bir ərazini – 8696 kvadrat kilometri, o cümlədən Naxçıvan və Şərur-Dərələyəz qəzalarını, Ordubad mahalını, Sərdarabadı, Uluxanlını, Vedibasarı, Qəmərlini, Mehrini, Sürməlini əhatə edən və 1 milyon nəfərə yaxın əhalisi olan Araz-Türk Respublikasının paytaxtı Naxçıvan şəhəri idi. Az bir müddət yaşamasına baxmayaraq Araz-Türk Respublikası əhalinin erməni təcavüzünə qarşı səfərbərliyə alınmasında, bölgənin erməni işğalından qorunmasında mühüm rol oynayırdı. Bu işdə əsası daha əvvəllərdən qoyulmuş, Araz-Türk Respublikası tərəfindən isə təşkilatlandırılmış milli qüvvələr - batalyonlar, o cümlədən Kəblə Muxtarın rəhbərlik etdiyi Nehrəm batalyonu, Kəblə Kərimin rəhbərlik etdiyi Cəhri batalyonu, Məhəmmədrza bəyin rəhbərlik etdiyi Dizə batalyonu, Hüseyn Əliyevin rəhbərlik etdiyi Şərur batalyonu, Həsən Şalıverdi oğlunun rəhbərlik etdiyi Şərur-Sədərək kəndlərindəki birliklər, Məşədi Ələsgər ağanın rəhbərlik etdiyi Yengicə qüvvələri, Möhsün Camalovun rəhbərlik etdiyi Kərkər qüvvələri, Fətullah Hüseynov və Kərbəlayi Həbib bəyin başçılığı ilə Cəlilkənd-Zeyvə-Düdəngə kənd qüvvələri, İbrahimxəlil Axundovun rəhbərlik etdiyi Ordubad batalyonu mühüm rol oynamışlar. Bütün bunların sayəsində, əhalinin qüvvəsi ilə Naxçıvan erməni təcavüzündən xilas oldu. Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyü təmin olundu.

### Zəngəzurun işğalı Naxçıvanı Vətəndən ayrı saldı

1919-cu ilin əvvəllərində ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasını və Naxçıvan Milli Komitəsini ləğv etdilər. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ermənilərə inanaraq 23 noyabr 1919-cu ildə Erme¬nistanla bağlanmış müqavilənin şərtlərinə əsasən öz qoşunlarını Zəngəzurdan çıxardı. Bundan istifadə edən ermənilər Zəngəzuru tutdu və Naxçıvanın Azərbaycandan ayrı düşməsinin əsası qoyuldu. Zəngəzurun bir hissəsinin ermənilər tərəfindən işğal edilməsi Naxçıvan bölgəsinin blokadaya salınması, onun Azərbaycanın əsas hissəsi ilə əlaqələrinin kəsilməsi ilə nəticələndi.

Əzəli və tarixi Azərbaycan torpağı olan, hazırda indiki Ermənistanın cənub-şərqində yerləşən Zəngəzur ərazisi qədim zamanlardan Azərbaycan xalqına məxsus Göyçə gölü hövzəsini və Azərbaycan Respublikasının cənub-qərb hissəsini əhatə edir. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları ilə sərhədlənən, qədim zamanlardan Azərbaycan ərazisində yaranan müxtəlif dövlətlərin tərkibində olan və əhali tərəfindən Zəngəzur mahalı kimi tanınan bu ərazinin bir hissəsi Xanlıqlar dövründə Qarabağ, bir hissəsi Naxçıvan, qalan hissəsi İrəvan xanlığının tərkibində olmuşdur. Mahal ərazisinə daxil olan torpaqlar el qaydası ilə Qarakilsə, Gorus, Qafan, Mehri, Zəngilan, Qubadlı, Laçın bölgələrinə bölünmüşdür. Şimali Azərbaycanın Rusiyaya ilhaq edilməsindən sonra digər Azərbaycan torpaqları kimi əhalisi ancaq Azərbaycan türklərindən ibarət olan Zəngəzura da İrandan və Osmanlı imperiyasından çoxlu erməni köçürülmüş, bununla da ərazidə onların sayı süni surətdə artırılmışdır.

Hələ Rusiya imperiyası dağıldıqdan sonra, XIX yüzillik boyu buraya köçürülən və yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ilin martından 1918-ci ilin mayınadək Zəngəzur ərazisində türk-müsəlman əhaliyə qarşı böyük soyqırımları törətmiş, yüzlərlə yaşayış məskənini dağıtmış, əhalini deportasiya etmişlər. Bu qırğınlar 1918-ci ilin mayın sonlarında Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin yaranmasından sonra da davam etdirilmişdir. Təkcə erməni quldurlarından Andronikin, Njdenin və Dronun dəstələrinin basqınları nəticəsində 1918-ci ildə Zəngəzurun 115 kəndi yerlə-yeksan edilmiş, əhalisinə divan tutulmuşdu. Bu qırğınlar zamanı 3257 kişi, 2776 qadın, 2196 uşaq qətlə yetirilmiş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdı.

Ardı Səh. 12

ARAŞDIRMA+TƏHLİL




# NAXÇIVAN: dəfələrlə soyqırımına məruz qalan qədim torpaq



Əvvəli-Səh-11

Beləliklə, bütün qəza üzrə 10068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmiş, 50 mindən çox adam didərgin düşərək Azərbaycanın kəndlərinə pənah gətirmişdi.

Mənbədə göstərilir ki, 29 noyabr 1920-ci ildə Ermənistan SSR-in yaradılmasından sonra ermənilərin Naxçıvana olan ərazi iddiaları daha da genişləndi. Bu zaman V.İ.Lenin, İ.Stalin və S.Orcenikidze Naxçıvanın Ermənistana verilməsi ideyasını müdafiə edirdilər. İ.Stalin hələ Ermənistanda sovet hakimiyyətinin qurulmasından əvvəl, 4 noyabr 1920-ci ildə AK(b)P Mərkəzi Komitəsinin Siyasi Bürosu və RK(b)P Qafqaz Bürosu üzvlərinin iştirakı ilə "Ermənistanda vəziyyət" məsələsi müzakirə edilərkən belə bir bəyanatla çıxış etmişdi ki, əgər bilmək istəyirsinizsə Zəngəzur və Naxçıvan kimə məxsus olmalıdır, onları Ermənistanın indiki hökumətinə (yəni Daşnak hökumətinə) vermək olmaz, Sovet hökuməti olanda vermək olar. Bu bəyanat elə bir vaxtda verilmişdi ki, artıq Qırmızı ordu hissələri Cənubi Qafqaza daxil olmuş, Azərbaycanı, az sonra Naxçıvanı sovetləşdirmişdi. Ermənistanın sovetləşməsinə lap az qalmışdı. Başqa sözlə desək, Ermənistan 29 noyabrda, yəni bəyanatdan 25 gün sonra sovetləşdi. Deməli, İ.Stalin bu vəziyyəti qabaqcadan görür və faktiki olaraq Naxçıvanın və Zəngəzurun Ermənistana verilməsini istəyirdi. Məhz buna görə də Ermənistan sovetləşdikdən sonra sovet rəhbərliyinin anti-Azərbaycan siyasəti nəticəsində Zəngəzur ərazisinin böyük bir hissəsi Ermənistan SSR-ə verildi. Bu tarixi Azərbaycan torpağının hesabına Ermənistan SSR Xalq Komissarları Sovetinin 20 iyul 1921-ci il tarixli qərarı ilə Ermənistan SSR-nin tərkibində Zəngəzur qəzası yaradıldı. Beləliklə, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan bölgəsi süni surətdə Azərbaycanın əsas hissəsindən ayrı salındı.

## Naxçıvanı muxtariyyət statusu xilas etdi

Əlbəttə, bu məsələlər o qədər planlı şəkildə həyata keçirilirdi ki... Məqsəd Naxçıvanı aradan götürüb hazırca loxma kimi mənimsəmək idi. Muxtariyyət statusu bu loxmanı düşmənin ağzında zəhərə çevirdi. Tarixi mənbələrdə göstərilir ki, Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsində Moskva və Qars müqavilələrinin də böyük rolu oldu. Nəriman Nərimanovun bu məsələdə prinsipial mövqeyi, Behbud ağa Şahtaxtinskinin Moskvada apardığı danışıqlar Naxçıvan məsələsində Moskvanın mövqeyinin dəyişməsinə öz təsirini göstərdi. Ümumiyyətlə, Behbud ağa Şaxtaxtinskinin Naxçıvana muxtariyyət statusunun verilməsində çox böyük xidmətləri olmuşdur. O hətta Moskvaya, Vladimir İliç Leninə məktub yazmış, həmin məktubda Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ haqqında həqiqətləri ona çatdırmışdı. Məktubda tarixi Azərbaycan torpaqları olan ərazilər, həmin yerlərin tarixi coğrafiyası, əhalisinin milli tərkibi haqqında məlumatlar verilmiş, fikirlərini sübut etmək üçün Moskvaya bir sıra arayışlar göndərilmişdi. Bütün bunlar Leninin diqqətini cəlb etmiş, nəticədə Siyasi Büro onun təklifi ilə Azərbaycan SSR-in tərkibində Naxçıvan SSR-in təşkili haqqında qərar qəbul etmişdi. 16 mart 1921-ci ildə RSFSR ilə Türkiyə arasında bağlanan Moskva müqaviləsi, bunun ardınca 13 oktyabr 1921-ci ildə Qarsda Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndələrinin iştirakı ilə imzalanan müqavilə Naxçıvanın ərazi mənsubiyyətini, hətta sərhədlərini belə təsdiqlədi. Ancaq müxtəlif səbəblərdən Naxçıvan Muxtar Respublikasının yaradılması ləngimiş, 27 fevral 1923-cü ildə III Ümum Naxçıvan Sovetlər qurultayının qərarı ilə Naxçıvan Muxtar Diyarı yaradılmışdı. Nəhayət 9 fevral 1924-cü ildə Azərbaycan MİK Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradıldığını elan etmişdir. Beləliklə, qədim və əzəli Azərbaycan ərazisi olan Naxçıvan 1920-1923-cü illərdə Naxçıvan SSR, 1923-1924-ci illərdə Naxçıvan Muxtar Diyarı, 1924-cü ilin 9 fevralından 1990-cı ilin 17 noyabrınadək Naxçıvan MSSR adlanmışdır.

Naxçıvan MSSR Ali Sovetinin 1990-cı ildə yeni seçilmiş deputatlarının iştirakı ilə 17 noyabrda keçirilən ilk sessiyasına sədrlik edən Ümummilli lider Heydər Əliyevin təklifi ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Həmin vaxtdan Azərbaycanın bu qədim diyarı Naxçıvan Muxtar Respublikası adlanmağa başladı.

## Arxiv materialları təsdiq edir

Naxçıvan həmişə ermənilərin iştahasında olub. Özlərini dost kimi göstərib düşmən planlarını cızıb, məqam gözləyiblər. Məsələn, 1918-ci ilin arxiv materialları, tədqiqat əsərləri, baş verən faciələri gözləri ilə görən müasirlərin xatirələri və sair faktlar təkzibolunmaz şəkildə təsdiq edir ki, 1918-ci il Naxçıvan əhalisi üçün böyük müsibətlərlə başlanıb. Qafqaz cəbhəsində məğlub olaraq ərazini tərk edən Rusiya ordusundan aldıqları döyüş sursatı ilə güclü surətdə silahlanmış erməni quldur dəstələri artıq mart ayında Naxçıvan bölgəsinin müxtəlif yerlərində faciəli qırğınlar törədiblər. Onlar Naxçıvan və Şərur-Dərələyəz qəzalarının, Ordubadın kəndlərinə qəfil basqınlar etmiş, əhaliyə divan tutmuş, qadınları, uşaqları, qocaları belə öldürmüş, heç kimə rəhm etməmişlər. Arxiv materialları təsdiq edir ki, 1918-ci il yayın əvvəllərinə qədər ermənilər çoxlu miqdarda müsəlman kəndini yandırmış, minlərlə günahsız insanı qətlə yetirmişlər.

Belə bir vaxtda Naxçıvan ərazisi Azərbaycan xalqının qəddar düşməni, Türkiyədə hərbi andına xəyanət etdiyinə görə bir qulağı kəsilməklə cəzalandırılan qaniçən general Andronik Ozanyanın hücumlarına məruz qalır, 1918-ci ilin iyun ayında Xoy şəhəri yaxınlığında türk qoşunları tərəfindən məğlub edilən Andronik öz qoşunları ilə Arazın cənub sahilləri boyunca şərqə doğru hərəkət edir və Culfa bölgəsinin Yaycı kəndi yaxınlığında Arazı keçərək Naxçıvan ərazisinə daxil olur. Yaycı kənd əhalisi mühasirəyə alınır. Hücum nəticəsində dörd minə yaxın qadın, uşaq və yaşlının çoxu qətlə yetirilir. Ölənlər o qədər çox, qalanlar o qədər az imiş ki, ölənləri dəfn etməyə adam yox imiş.

Naxçıvan şəhərini tutmağı öz qarşısına məqsəd qoyan Andronikin quldur dəstələri Yaycıdan sonra Ordubad rayonunun Aza, Dizə, Düylün kəndlərinin əhalisini demək olar ki, qılıncdan keçirir. Qısa müddət ərzində o, Ordubad dairəsinin əksər hissəsini, Culfa şəhərini və bir sıra kəndləri işğal edir. Dövri mətbuat materialları təsdiq edir ki, həmin vaxt Andronik Gilançay, Əlincəçay və Naxçıvançay vadisində çoxlu kəndi dağıdıb viran qoymuş, əhalinin əksəriyyətini vəhşicəsinə qətlə yetirmişdir. Baş verən bu hadisələrlə əlaqədar ordubadlılar və Naxçıvan əhalisi Bakıya vurduqları teleqramlarda bildirirdilər ki, Andronikin quldur dəstəsi burada amansız qırğın aparır və talançılıqla məşğul olur. Məhz belə bir şəraitdə vəziyyətdən çıxış yolu axtaran naxçıvanlı demokratik ziyalıların və milli burjuaziyanın təşəbbüsü ilə Naxçıvanda Müsəlman Milli Şurası yaradılır. Milli Şura yerli əhalinin köməyi ilə təkcə Naxçıvanda deyil, geniş miqyasda Mehridən Uluxanlıya qədər ərazidə yaşayan azərbaycanlıları erməni quldur dəstələrinin qırğınlarından qoruyur.

Kazım Qarabəkir paşanın rəhbərliyi ilə Naxçıvana köməyə gələn türk qoşunları ilə Naxçıvan əhalisi, xüsusilə yerli gənclərdən təşkil olunmuş könüllü özünümüdafiə dəstələri ermənilərin Naxçıvanı tutmaq və yaratmaq istədikləri xəyali "böyük Ermənistan"a qatmaq arzusunun həyata keçirilməsinə mane olur. Ümumiyyətlə, Naxçıvan əhalisi bütün vaxtlarda Naxçıvanı süni surətdə ayrı salınmış ana torpaqla – Azərbaycanla birləşmək uğrunda mübarizə aparmışlar.

## Naxçıvan qorundu, düşmənin arzusu ürəyində qaldı

1905-1907-ci illər qırğınlarından bir neçə il sonra, 1911-ci ildə Məmməd Səid Ordubadinin yazdığı "Qanlı sənələr" adlı kitabı da sənədlər toplusu olaraq bu məsələlərdən bəhs edirdi. Müəllif Azərbaycanın bütün bölgələrindən və ermənilər də daxil olmaqla müxtəlif əhali qruplarından alınmış 600-dən artıq mənbəyə istinadən 245 məktub və digər materiallar əsasında on minlərlə günahsız insanın məhvinə, minlərlə evlərin, təsərrüfatların, kəndlərin dağıdılmasına səbəb olmuş faciəvi hadisələrin qərəzsiz xronikasını yaradıb. M.S.Ordubadi faktların və hadisələrin təsviri ilə kifayətlənməyərək, millətlərarası toqquşmalara gətirib çıxaran səbəbləri də təhlil etməyə çalışıb və onları belə qruplaşdırıb: "Daşnaksütun" tərəfindən Qafqazda oynanılmış "qanlı teatr"; yerli hakimiyyət nümayəndələrinin etinasızlığı və fəaliyyətsizliyi; erməni fitnəkarlığını və hiylələrini vaxtında tanıya bilməmiş azərbaycanlıların sadəlövlüyü və təcrübəsizliyi, habelə silahlarının olmaması; Londonun, Parisin və Amerikanın fəal dəstəyi sayəsində Türkiyə və Cənubi Qafqazın ərazilərində "böyük Ermənistan" yaratmaq məqsədilə ermənilərin muxtariyyətə can atması".

Ancaq tarix də sübut edir ki, naxçıvanlılar əllərində silah olmasa da, canlarını sipər edərək yurd-yuvalarını hər zaman qoruyublar. Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin də etiraf etdiyi kimi, Naxçıvan əhalisinin igidliyi, qəhrəmanlığı, vətənpərvərliyi sayəsində çox çətin və mürəkkəb şəraitdə bölgənin ərazi bütövlüyü qorunub saxlandı, ermənilərin "böyük Ermənistan" xülyasının gerçəkləşməsinə imkan verilmədi. Əgər belə olmasaydı, ermənilər Naxçıvanı ələ keçirəcəkdi.

1990-cı ildə Bakıda törədilən 20 Yanvar faciəsinə etiraz edərək Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdan, daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik edən Ulu öndər Heydər Əliyevlə açıq mübarizədə heç bir nəticə əldə edə bilməyən və iflasa uğrayan bəzi qüvvələr onu hakimiyyətdən kənarlaşdırmaq, siyasi həyatdan təcrid etmək üçün min oyun törədirdilər. Burada məqsəd yaranmış vəziyyətdən istifadə edib Naxçıvanın muxtariyyət statusunu ləğv etmək və bəzi dairələrin bununla istəklərinə nail olması idi. Lakin bacara bilmədilər. Böyük Heydər Əliyev Naxçıvanı da, naxçıvanlıları da qorudu, onları 1990-cı illərin təlatümündən xilas etdi. Həmin illərdə tamamilə blokadaya alınan, insanların aclıqla mücadilə etdiyi Naxçıvanda Heydər Əliyev olmasaydı, Naxçıvan asanlıqla ermənilər tərəfindən işğal edilə bilərdi. Bütün bunlara görə, bu gün Naxçıvanın var olması üçün Ulu öndərə minnətdarıq.

2020-ci ilin 10 noyabrında ermənilər üzərində tarixi qələbəmizdən sonra Qarabağla yaşıd olan Naxçıvan blokadasının da 30 illik düyünü açılmaqdadır. Qarabağ torpaqlarının işğalı ilə başlanan Naxçıvan blokadası torpaqların azad olunması ilə də aradan qaldırılır. Artıq Naxçıvan da Qarabağ torpaqları kimi həsrət qaldığı anası Azərbaycanın qoynuna sığına biləcək, həsrəti sona yetəcək. Buna düşünülmüş siyasətin bəhrəsi olan 10 noyabr Bəyanatı ilə nail oluruq.

Beləliklə, zamanın müxtəlif kəsiklərində dəfələrlə erməni soyqırımlarına məruz qalan qədim Naxçıvan özünü əzmlə müdafiə etməklə bu gün tarix qarşısında alnıaçıq, üzüağ dayanır. Bu qədim yurd yerinin blokadadan birdəfəlik azad olmasına isə çox az bir zaman qalıb.

*Mətanət Məmmədova*



# Başlıbel qətliamı

*Kəlbəcər rayonunun Başlıbel kəndində 1993-cü ilin aprel ayının 2-də baş verən qətliamdan 30 il ötür*

***Xalqımıza qarşı davam edən mənfur siyasətin nəticəsində XX əsrdə 2 milyona yaxın azərbaycanlı soyqırımı və deportasiyaya məruz qalıb. Xalqımıza qarşı törədilmiş milli qırğın, soyqırımı və deportasiyanın ağır nəticələrini yaşamışıq. 1905-1907, 1918-1920-ci illərdə ermənilərin Bakı, Quba, Naxçıvan, Qarabağ, Şamaxı və başqa bölgələrimizdə törətdikləri qırğınların dəhşətli nəticələri, Qaradağlı və Xocalıda eyni ssenari əsasında həyata keçirilən soyqırımları tariximizin qanlı səhifələrində yer alıb. Hüquq normalarına zidd olan qərarlara əsasən azərbaycanlıların tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası da Azərbaycan xalqına qarşı törədilən cinayətlər sırasındadır.***

## AZƏRBAYCANLILARIN AMANSIZLIQLA QƏTLƏ YETİRİLDİYİ MART SOYQIRIMI

Azərbaycanlılara qarşı iki əsr davam edən genişmiqyaslı qanlı soyqırım aksiyası nəticəsində yüzlərlə yaşayış məntəqəsi yerlə-yeksan edilib, minlərlə insan elindən-obasından didərgin düşüb. 105 il bundan əvvəl 1918-ci ildə erməni quldurları tərəfindən azərbaycanlılara qarşı törədilən Comərdli soyqırımı da tariximizdə qanlı səhifə olaraq yer alıb. Comərdli kəndi Qarakilsə rayon mərkəzindən 15 kilometr aralıda – Salvartı dağının ətəyində yerləşirdi. Comərdli Qarakilsənin ən böyük türk kəndlərindən biri idi. 1918-ci ildə daşnak Andranik Ozanyanın quldur dəstəsi Qarakilsəyə qan uddurduğu vaxt onun zülmünə tuş olmuş kəndlərdən biri də məhz Comərdli idi. Əhalinin yarıdan çoxu qətlə yetirilib, bəladan qurtaranlar isə sıldırımlı dağları, qayalıqları aşaraq Naxçıvana pənah aparıblar.

Azərbaycan tarixində belə faciələrlə, soyqırımları ilə bağlı hadisələr yer alıb. Təbii ki, bütün əhali qruplarının, etnosların, irqi, milli, etnik, yaxud dini əlamətlərinə görə tamamilə və qismən məhv edilməsi soyqırım, genosid deməkdir. Azərbaycan xalqı ermənilər tərəfindən bütöv bir əsr boyu bu cür soyqırıma məruz qalmışdır. Ermənilərin Azərbaycan torpaqlarında törətdiklər terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində xalqımız misli görünməmiş faciələr yaşamışdır. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini göstərmiş olur. Mart hadisələri - Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir.

## BİR GECƏDƏ 613 NƏFƏR XOCALI SAKİNİ QƏTLƏ YETİRİLDİ

1992-ci ilin Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artilleriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Bir günün içində yer üzündən silinən Xocalıda yaşayan sakindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulub. Keçən dövr ərzində 13 ölkənin Parlamentində Xocalı soyqırımı rəsmi olaraq tanınıb. 2011-ci ildə Meksika, 2012-ci ildə Pakistan, Kolumbiya, 2013-cü ildə Çex Respublikası, Bosniya və Herseqovina, Peru, Panama, İordaniya, 2014-cü ildə Sudan və Honduras, 2015-ci ildə Qvatemala, 2017-ci ildə Cibuti və Paraqvay Parlamentlərində Xocalı faciəsi soyqırımı kimi tanınmışdır. Bundan başqa, ABŞ-ın 20-dən artıq ştatında və İslam Əməkdaşlıq Təşkilatında Xocalı soyqırımı ilə bağlı qətnamə və digər sənədlər qəbul olunmuşdur.

## AĞDABAN SOYQIRIMI - BƏŞƏRİYYƏTƏ QARŞI TÖRƏDİLMİŞ ƏN BÖYÜK CİNAYƏTLƏRDƏN BİRİ

Xocalı faciəsindən bir neçə gün sonra 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi yazıldı. 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən Qaradağlı qətliamı da Qarabağ münaqişəsi zamanı baş vermişdir. Nəticədə xeyli sayda mülki azərbaycanlı şəxslər ermənilər tərəfindən qətlə yetirilmiş, bir o qədər də əsir alınmışdır. 117 nəfər əsir alınmış, 66-90 nəfər mülki şəxs isə qətlə yetirilmişdir. Öldürülənlərdən 21-i ahıl və qocalar, 10-u qadın, 8-i məktəbli olub. 146 uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb, 25 çarpayılıq xəstəxana binası və digər sosial obyektlər dağıdılıb. Tariximizdə belə hadisələr kifayət qədərdir.

Tarix təkrarlanıb. Azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq məqsədi ilə ideyalarının reallaşdırmağa can atıblar. Ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçiriblər. İyirminci yüzillikdəki tarixi yolumuza nəzər salaq görərik ki, 1905-1907, 1918-1920, 1948-1953 və 1988-ci ildən baş verənlər erməni faşizminin xalqımıza qarşı olan çirkin niyyətlərinin göstəricisidir.

## QƏTLİAMIN ACI NƏTİCƏLƏRİ

Bu faciələr sırasında Kəlbəcər rayonunun ən böyük kəndlərindən biri olan Başlıbeldə törədilən qətliamdır ki, həmin tarixdən bu gün artıq 30 il ötür. 1993-cü ilin aprel ayının 2-də baş verən hadisə zamanı Başlıbelin kənd sakinlərinin bir qrupu mühasirədən çıxmağa çalışsalar da, buna nail ola bilməyiblər. Bu zaman sakinlərdən 9 nəfər yolda qətlə yetirilib, 5 nəfər girov götürülüb. Digər 62 nəfər isə dağlara çəkilərək kahalara sığınmaqla özlərini qorumağa çalışıblar. Amma onlar cəmi 18 gün gizli yaşaya biliblər. Aprelin 18-də erməni silahlı birləşmələri dinc sakinlərin sığındığı kahaların yerini aşkarladıqdan sonra onların üzərinə silahlı hücuma keçiblər. Həmin gecə kənddən bir qədər yuxarıda yerləşən "Portda" kahalarına sığınmış sakinlərin üzərinə amansız hücum zamanı dinc sakinlərdən 14 nəfər girov götürülüb, 18 nəfər qətlə yetirilib. Sağ qalan 30 nəfər isə sığınacaq yerlərini kəndin ərazisindəki digər kahalara dəyişərək mühasirə həyatını davam etdirib. Onlar 113 gündən sonra, iyulun 17-də sığınacağı tərk edərək yalnız gecələr hərəkət etməklə gizli dağ yolları vasitəsilə Ermənistan ordusunun mühasirəsindən çıxa biliblər.

## "DƏMİR YUMRUQ" YERİNDƏDİR

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Ölkənin hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirildi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunun nümayişi oldu. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusu Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağı ordumuzun hansı gücə sahib olduğunun təzahürüdür.

Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü. rəşadətli ordumuzun dönməzliyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı. 2020-ci ilin sentyabrın 27-də Ermənistan ordusunun təxribatlarına qarşı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlayan genişmiqyaslı Vətən müharibəsində Zəfər qazandıq. İşğal altında olan torpaqlarımız düşməndən azad olundu. 44 günlük müharibə dövründə də erməni vandallığının, terrorunun acılarını da yaşadıq. Vətən müharibəsi dövründə dinc insanlara, mülki əhaliyə qarşı etdikləri əməllər, işğaldan azad olan torpaqlarımızı tərk edərkən törətdikləri yanğınlar erməninin faşist ideologiyasının təzahürüdür. Ermənistanın ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq əməlləri dünyanın nüfuzlu nəşrlərində və sosial şəbəkələrdə yer aldı. Ermənistanın beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu siması bir daha ortaya qoymuş oldu.

Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə aldı.

Azərbaycanın əzəli, tarixi torpaqları bu gün işğaldan azad olunub. Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. "Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü", - deyən Prezident bildirib ki, bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi: "Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!" Bu gün də Cənab Prezidentin dəfələrlə vurğuladığı kimi, "dəmir yumruq" yerindədir.

***Nəzakət ƏLƏDDİNQIZI***

---

# "Laçın yolunda ekofəalların başlatdığı aksiya haqlı tələblərə əsaslanır"



"Xalqımızın üzləşdiyi və erməni daşnaklarının səbəb olduğu çoxsaylı soyqırımı aktları yaşamağımıza baxmayaraq dünya birliyi tərəfindən bu məsələlərdə hər zaman ikili standartlarla üzləşmişik. 1918-ci ilin mart soyqırımı bu faciələr arasında ən qanlı olaylardan biri sayılır. Bir çox rayonlarımızda hələ də həmin dövrə aid kütləvi məzarlıqlar aşkarlanır". Bunu "Səs" qəzetinə açıqlamasında "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova deyib.

Onun sözlərinə görə, kifayət qədər tarixi faktların və əyani sübutların olmasına baxmayaraq beynəlxalq aləm istər mart, istərsə də Xocalı soyqırımlarını tanımaq qəbul etmək istəmir: "Bunun da əsas səbəblərindən biri ermənilərə bəslənən xristian təəssübkeşliyidir. Lakin bu vəziyyət bizi ruhdan salmamalı, həqiqətlərin tanınması, etiraf olunması istiqamətlərində beynəlxalq səviyyədə fəaliyyətimizi daha da təkmilləşdirməliyik. Əslində, Laçın yolunda ekofəalların başlatdığı aksiyada haqlı tələblərimizi bir kənara qoyub ermənilərin "təcrid, soyqırım, humanitar fəlakət" kimi əsassız iddialarının əsas götürülməsi, ölkəmizə qarşı başladılan çirkin kampaniya mövcud reallığı göstərir. Bizim həqiqətlərimizin onların maraqları ilə uzlaşmadığını, hüquq və ədalət anlayışlarının yalnız ermənilər üçün keçərli olduğunu isbatlayır".

***GÜLYANƏ***

# Erməni KİV-ləri Aİ missiyasını ittiham etdilər – bizdən qaçırlar





HAŞİYƏ

*Politik.am: "Ermənistana erməniləri müdafiə etmək adı ilə gələn Aİ müşahidəçiləri erməni KİV-lərindən qaçırlar"*

Ermənistanda fəaliyyət göstərən media qurumları bu dəfə Avropa İttifaqı missiyasının ölkədəki fəaliyyətinin səmərəsizliyindən şikayət etmələri ilə yanaşı, missiya təmsilçilərinin mətbuatdan qaçdıqlarını və proseslərlə bağlı heç nə demədiklərini yazırlar. Aİ missiyasını hədəfə alan Ermənistanın politik.am saytı bununla bağlı yazı hazırlayıb və orada bildirilir ki, missiya təmsilçilərinin cavabları yalnız belədir: "Biz müdaxilə edə bilmərik, bizim ixtiyarımızda yalnız binokllar və kameralar var". Bu barədə Aİ missiyasının Ermənistana ezam olunmuş qrup rəhbəri Markus Ritter Almaniyanın Deutsche Welle nəşrinin suallarını cavablandırarkən bildirib.

**"Avropa dəyərlərinə müvafiq transparentliyi təmin etmirlər"**

Erməni KİV-ləri Aİ missiyasını hədəfə alaraq onlara qarşı ittiham xarakterli fikirlər dərc edirlər və "Azərbaycanın Ermənistana hücum etmə ehtimalı" ətrafında fikirlərini irəli sürərək yazırlar ki, missiya nümayəndələri nəinki bu məsələyə münasibət bildirməkdən yayınırlar, həmçinin, erməni mətbuatı ilə təmas qurmağı da istəmirlər. "Onlar bizi narahat edən suallara cavab vermirlər və Avropa dəyərlərinə müvafiq transparentliyi təmin etmirlər", deyə KİV-lərdə bildirilir.

**"Müşahidə missiyasının yerəşdiyi mehmanxanda ajiotaj yaşanırdı"**

Politik.am yazır ki, bu agentlik artıq bir neçə həftədir ki, müşahidə missiyasının fəaliyyətini işıqlandırmağa cəhd edir, lakin onlar hər fürsətdə onların suallarını cavabsız qoyur: "Əvvəlcə biz missiyanın nümayəndələri ilə Aİ-nin Ermənistandakı səfirliyi vasitəsi ilə əlaqə yaratmağa səy göstərdik və bizə dedilər ki, bununla bağlı yazılı müraciət etmək lazımdır, ancaq sonrakı məqamda bizim müraciətimizə cavab verilmədi. Biz məcbur olaraq müşahidə missiyasının Yexeqnadzordakı Baş qərargahına getdik ki, bizi maraqlandıran sualların cavabını yerində öyrənək. Müşahidə missiyasının yerəşdiyi mehmanxanana ajiotaj yaşanırdı. Müşahidəçilər öyrənəndə ki, biz erməni KİV-lərinin təmsilçiləriyik, tələb etdilər ki, onları çəkməyəcək və sonra da öz rəhbərlikləri ilə əlaqə yaradaraq suallarımıza cavab verməkdən imtina etdilər".

**"Bu dəfə də məktubumuz cavabsız qaldı... Onlar nəyi gizlədirlər? Və bu qədər qapalı və məxfi fəaliyyətə səbəb nədir?"**

Adıçəkilən erməni mediası onu da qeyd edir ki, onlar cavab gözləyərkən mehmanxanada fəal hərəkətlilik müşahidə olunurdu və ehtimal var idi ki, missiya nümayəndələri işləri ilə bağlı səfərə hazırlaşırdılar: "Sonra bizə missiyanın əməkdaşı yaxınlaşdı və kameralar qarşısında çıxış etməyi rədd etdi, eləcə də bizə aparat rəhbəri Erik Dikumun elektron poçt ünvanını təqdim etdi, bildirdi ki, bu şəxs sualları cavablandırmağa hazırdır. İrəvana geri döndükdən sonra biz redaksiya adından cənab Dikuma məktub göndərdik, amma bu dəfə də məktubumuz cavabsız qaldı".

Erməni jurnalistləri bu şəxsin kimliyini araşdırıblar və məlum olub ki, Dikum fransız jandarmıdır və əvvəllər hərbi təyyarəçi olub (R.R.?!) O, Ermənistana qədər Aİ-nin Kosovadakı xüsusi missiyası ilə əlaqədə olub. Dikume 2019-cu ilə qədər Fransanın Ansi şəhərinin jandarmeriyasının komandiri olub.

Erməni nəşri sonda qeyd edir ki, Ermənistana gəlmiş Aİ missiyasının hansı səbəbdən KİV-lərdən qaçmaları suallar doğurur. "Onlar nəyi gizlədirlər? Və bu qədər qapalı və məxfi fəaliyyətə səbəb nədir?", deyə erməni jurnalistləri nə vaxtsa bu suallara cavab tapacaqlarına ümid etdiklərini bildiriblər.

***Rövşən RƏSULOV***

# Tərzi-dəb



FELYETON



Vallah, müasir gənclərin bizi bəzən qınaması heç də yersiz deyil. Son zamanlar onların üstünə çox gedirik, bəzi məsələlərdə çox deyinirik, onları tənbeh edirik. Onlar da bizə "siz geridə qalmışınız, bu, belə deyil, bizim bildiyimiz, etdiyimiz kimidir",-deyirlər.

Məsələn, bəzi gənclərimiz var ki, ictimai yerlərdə ucadan danışırlar, deyib-gülürlər. Biz də onları görəndə cin atına minirik. İstər-istəməz onlar barədə danışanda, qınayanda, cavabımızı belə alırıq ki, ay yazıqlar, müasir dövrdür, indi alçaqdan yox, ucadan danışmaq lazımdır ki, hər kəs eşitsin, gülsün, kefi açılsın. Bir də ki, ucadan danışmaq, gülmək həm dəbdir, həm də bizim tərzimizdir.

**Biz də anlayırıq ki, hə, bu, bəzi gənclərin tərzi-dəbidir, nə etməli?**

Tez-tez yolda, metroda, avtobusda, mağazada ağzında saqqız şövqlə çeynəyən gənclər görürsən. Yadına düşür ki, bizim valideynlərimiz deyərdi ki, ictimai yerdə saqqız çeynəmək mədəniyyətsizlikdir, insanlara qarşı hörmətsizlikdir. İstəyirsən ki, bu tövsiyəni bəzi gənclərə edəsən. Qayıdıb nə desələr yaxşıdır? Saqqız çeynəmək müasirlikdir. İndi artıq sizin dövrünüz deyil. Saqqız təravətli nəfəsdir... Həm də dəbdir, məxsusilikdir.

**Bu cavabı eşidəndə nə edirsən? Matınqutun quruyur, Deyirsən ki, müasir dövrün tərzi-dəbidir, nə etməli?**

Hazırkı cəmiyyətin müasirliklərindən biri də bəzi gənclərimizin geyimləridir ki, qızların yay-qış göbəkləri bayırdadır. Deyirsən, ay bala, bu nə geyimdir, axı sənə soyuq dəyər, xəstə olarsan, sabah bir qapını açıb gəlin gedəcəksən, ana olacaqsan. Nə üçün qorxmursan ki, səni bu geyimlə bəyənən olmaz? Nə desələr yaxşıdır? Cəhənnəmə bəyənsin, gora bəyənsinlər. İndi belə geyim bütün dünyada dəbdir. Bu, mənim tərzimdir, kim məni bəyənərsə, bu geyimlə qəbul etməlidir.

Aldım cavabını, gözüm kəllənəmi çıxdı? Axı onun-bunun işinə az qarış da... Bu, bəzi gənclərin tərzi-dəbidir, sən isə geridə qalmış birisi.

Bir də baxırsan ki, qarşıdan bir dəstə gənc oğlan gəlir. Birinin şalvarının dizi yoxdur, birinin saqqalı nə uzunluqda, birinin saçı qalxıb göyün yeddinci qatına, o birinin saçı bir neçə rəngdədir, o birinin corabının bir tayı bir rəng, o biri tayı başqa rəngdir. Baxırsan-baxırsan, vallah, bilmirsən güləsən, ağlayasan, nə edəsən. Yeri gələndə söhbət açıb deyirsən ki, ay bala, kişinin kişi geyimi olar. O dizi yox şalvarı kişi əyninə geyinər məgər? O qadın saçı ilə kişi bayıra çıxar? Niyə o saçlarını qaydasında kəsdirmirsən? O corabı geyinəndə görmürsən ki, taykeşdir? Və yaxud da o saçını niyə çəhrayı rəngə boyamısan? Hə, bunları deyib öyüd-nəsihət verəndə adamın üzünə elə qabarırlar ki, yerindəcə donub qalırsan. Cavabları isə bu olur ki, ay yazıq, sən keçmişdən gəlmisən. Biz isə bu gündə yaşayırıq. Buğunun dəbi budur. Həm də ki, kim istəyir cırıq şalvar geyinməsin, corabını taykeş yox, cüt geyinsin, saçını göyə qaldırmasın, yerə endirsin, saçını rəngləməsin, öz rəngində saxlasın, onlardan bizə nə? Bu, bizim tərzimizdir.

**Sən də udquna-udquna qalırsan, söz tapıb deyə bilmirsən. Bir də ki, axı nə deyəsən? Səni elə yerində oturdurlar ki, cınqırın da çıxmır. Bir onu ürəyində özünə pıçıldayırsan ki, bu, bəzi gənclərin tərzi-dəbidir də, nə etməli?..**

Hə, elə qızlarımız var ki, əyinlərindəki bir qarışdan da qısa ətəklərini görəndə, deyirsən ki, İlahi, yəqin bunlar evdən çıxanda analarının başı mətbəxdə iş-gücə qarışıbmış, yoxsa... Fikirləşirsən ki, mən də olum bunun anası, nə olar, gəncdir, başa salım, düz yol göstərim. Deyirsən ki, qızım, bu ətəyin bir azacıq uzun olsa, sənə çox gözəl yaraşar. Qayıdıb sənə nə desə, yaxşıdır? "Sən get öz qızına yol göstər. Mən evdən çıxanda görənim var. Bir də axı sən nə bilirsən, müasirlik nədir, dəb nədir? Sizlər XX əsrdə qalmısınız, indi XXI əsrdir".

**Deyirsən ki, dilim, dilim-dilim olasan, fərağat dayan da. Düz deyir də, anası var, evdən çıxanda görməyib məgər? Görməyib də özü bilər, görsün də... Bir də ki, bu, bu qızların tərzi-dəbidir, sənə nə? Nə etməli ki?..**



Heç nə, nə edəcəksən ki? Kor ol, görmə, kar ol, eşitmə, lal ol, danışma. Danışarsan, cavabını alarsan...

***Mətanət Məmmədova***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" istiqaməti çərçivəsində hazırlanıb.*

# Qarabağın mərdlik qalası – Laçın

## "Qarabağın qara qapısı" ermənilər üçün niyə əhəmiyyətli idi?

***Vətənin cənub-qərbində, dağlıq ərazidə yerləşir Laçın. Şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları ilə qardaşlaşıb, qərbdən Ermənistanla həmsərhəddir. Laçın düşmənlə Qarabağ arasındakı keçilməz səddir, alınmaz qaladır. Adına nəğmələr oxunan, işğalına bayatılar düzülən Laçın 28 il əsarət altında qaldıqdan sonra müzəffər Azərbaycan ordusu tərəfindən heç bir itki verilmədən azad edildi.***









### Qurulu rayonu işğal edib xarabalığı təhvil verdilər

Azərbaycan Ordusu tərəfindən Ermənistanın 2020-ci il sentyabrın 27-də olan təcavüzünə qarşı başlanan əks-hücum əməliyyatı 2020-ci il noyabrın 9-da böyük Zəfərlə başa çatdı. Ardıcıl olaraq torpaqlarımızın işğaldan azad edilməsi düşmən ölkədə şok effekti yaratdı. Noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi ilə müharibədə məğlub olduğunu qəbul edən Ermənistan məcburiyyət qarşısında qalaraq kapitulyasiya aktına imza atdı.

Sənədə görə Ağdam, Kəlbəcər rayonu və Laçın rayonları Azərbaycana qaytarıldı. Beləliklə, Laçının 28 illik işğalına 2020-ci il dekabrın 1-də son qoyuldu. Azərbaycan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğaldan azad edilməsinə heç bir itki vermədən nail oldu.

İşğal edərkən qurulu evlər, hazır təsərrüfatları ələ keçirən ermənilər bəyanatın imzalandığı gündən rayonun boşaldılmasınadək olan 20 gün müddətində Laçında daşı-daş üstündə qoymadılar. İşğal müddətində Laçın şəhərini və rayonun yaşayış məntəqələrini talanıb, darmadağın edilib, tarixi, mədəni, dini abidələr, qəbiristanlıqlar yer üzündən silinib.

### Laçının bütün infrastrukturu məhv edilmişdi

"Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Müzəffər lider İlham Əliyev 2020-ci ilin 1 dekabrında televiziya ilə müraciətində Laçın rayonunun işğaldan azad edilməsi münasibətilə Azərbaycan xalqını belə təbrik etmişdi. İşğaldan azad edildikdən sonra Laçının şərəfinə Azərbaycan Respublikasında "Laçının azad olunmasına görə" medalı təsis olunub.

2021-ci ilin 21 sentyabrında Laçın şəhərində Azərbaycan Bayrağını ucaldan Prezident İlham Əliyev rayonda erməni vandalizminin izlərinin silinməsi üçün dövlətin bütün gücünü səfərbər edəcəyindən danışdı. Prezident bildirdi ki, Laçın şəhəri işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qalıb: "Erməni vandalizminin təzahürləri hər bir kənddə, hər bir şəhərdə var. Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən – Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş verib".

Qeyd edək ki, işğal dövründə Laçın şəhərinin böyük hissəsi tamamilə viran qoyulub, dağıdılıb. Ancaq bəzi yerlərdə qanunsuz məskunlaşma aparılıb. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, Minsk qrupunun həmsədrləri buna, sadəcə olaraq göz yumurdular. Azərbaycan toponimlərinin sıradan çıxarılmasına, tarixinin silinməsinə icazə verirdilər.

### Ermənilər üçün Laçın niyə əhəmiyyətli idi?

Laçın dəhlizi Gorus – Şuşa – Kəlbəcər – Qubadlı arasında yerləşən strateji baxımdan çox əhəmiyyətli coğrafi ərazidir. Azərbaycan torpağı Laçının işğal edilməsi ermənilərin uzun illər ərzində qurduğu ən vacib plan idi. Onlar plan üzərində ilmə-ilmə işləmişdilər. Çünkü Laçının ələ keçirilməsi Ermənistanın Qarabağa gedən yolunun istədikləri kimi açılması demək idi. Laçının rayon statusu alması o vaxtkı Azərbaycan hakimiyyətinin ermənilərin mənfur niyyətinə qarşı hesabladığı ən tutarlı manea idi.

Ərazi etibarı ilə təbii resurslarla zənginliyi Laçın "koridor"unun əhəmiyyətini daha da artırırdı. Zəngəzur silsiləsinin bütün zirvə hissəsinin öz başlanğıclarını Laçın dəhlizindən götürdüyünü desək, yanılmarıq. Bu dağ silsiləsi qalın otlaqlı yaylaqlardan, böyük çınqıllıqlardan, yeraltı və yerüstü mədənlərdən, mineral yataqlarından, silsilənin ətəkləri isə nadir növlü ağaclara malik enliyarpaqlı meşələrdən ibarətdir. Laçının tarixi abidələri onun ömrünün eramızdan əvvələ qədər uzandığından xəbər verir.

Laçın dəhlizi Qarabağla Zəngəzur arasında möhtəşəm bir körpü rolunu oynayır. Bu dəhlizə nəzarət kimin əlindədirsə, Qarabağ və Zəngəzur ərazilərinə də diktə edən tərəf odur. Faktiki olaraq, Laçın ərazisi olmadan Ermənistanın Qarabağı işğal altında saxlaya bilməsi hərbi cəhətdən mümkün deyil. Məhz bu səbəbdən Ermənistan Laçın "koridor"unu özü üçün vazkeçilməz hesab edirdi və geri verməmək üçün bütün mümkün və qeyri-mümkün vasitələrə əl atdılar.

### Laçın yenidən qurulur

Prezident İlham Əliyev bir neçə gün öncə Məsim Məmmədovu Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi təyin olunması münasibəti ilə qəbul edib. Görüşdə ölkə rəhbəri Laçın şəhərinin Azərbaycanın dünya miqyasında ən gözəl şəhərlərindən birinə çevriləcəyi, cənnət məkan olacağı barədə danışıb. "Biz azad edilmiş bütün torpaqlarda indi genişmiqyaslı quruculuq işləri aparırıq və bu işləri öz hesabımıza görürük və görəcəyik", - deyə Azərbaycan Prezidenti qeyd edib.

İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma, abadlaşdırma işləri dayanmadan aparılır. Güləbird kəndində Su Elektrik Stansiyasının açılışı oldu, üstəlik bu Laçın rayonu işğaldan azad olunandan ay yarımdan sonra baş verdi. Dövlətimizin başçısı 2021-ci il avqustun 16-da Kəlbəcər və Laçın rayonlarına səfəri zamanı Kəlbəcər-Laçın avtomobil yolu üzərində inşa olunacaq tunelin və Laçın Beynəlxalq Hava Limanının təməlini qoydu. 2022-ci ilin 21 sentyabrında İlham Əliyev Laçın şəhərində inşa ediləcək "Laçın" qovşaq yarımstansiyasının təməlqoyma mərasimində iştirak etdi.

Laçın yenidən qurulur. Rayonun Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı 2022 - ci ilin dövlət büdcəsindən 800 min vəsait ayrıldı. Hazırda Laçın şəhərinin bütün infrastrukturu yenilənir– su xətləri, kanalizasiya xətləri, elektrik enerjisi xətləri, tunellər salınır, beynəlxalq hava limanı tikilir, 50 kilometrdən çox daxili yollar yenidən qurulur. Göründüyü kimi işğaldan azad olunmuş bütün ərazilərdə işlər sürətlə davam etdirilir. Laçın rayonu region üçün mühüm coğrafi mövqeyə malikdir, həyata keçirilən bərpa və yenidənqurma işləri strateji mövqelərimizi daha da möhkəmləndirəcək.

***Lalə Mehralı***

SON SƏHİFƏ
Səs
1 aprel
2023-cü il

# “Verilən qərar avtomobil parkının yenilənməsinə səbəb olacaq”

## İQTİSADÇI DANIŞDI



“Bildiyiniz kimi, istehsal tarixi 10 ildən çox olan avtomobillərin ölkəyə gətirilməsinə qadağa qoyulması ilə bağlı qərar verilib. Bu qərar ölkədə avtomobil parkının yenilənməsinə müsbət təsir göstərəcək. Bu, həm ətraf-mühitin çirklənməsinin qarşısını alacaq, həm də ölkəyə daha yaxşı texniki vəziyyətdə olan avtomobillərin idxalını təmin edəcək”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eyyub Kərimli deyib.

Onun sözlərinə görə, ölkədə 1 milyon 300 min ədəd avtomobil var: ”Bu avtomobillərin 75%-nin istehsal tarixi 10 ildən yüksəkdir. Bu da avtomobil parkının çox köhnə olmasının isbatıdır. Həmin avtomobillərin ekoloji zərərləri də yüksəkdir. Hesab edirəm ki, bu qərar həm də daxili bazarda köhnə avtomobillərin qiymətinin artmasına təsir edəcək. Çünki istehsal tarixi 10 ildən aşağı olan avtomobillərin qiyməti hər kəs üçün əlçatan deyil və ölkəyə idxalını da təmin edə bilməyəcək. Sözsüz ki, bu da köhnə avtomobillərə daha çox tələb yaradacaq və qiymətin bahalaşmasına gətirib çıxaracaq. Düşünürəm ki, bu qiymət artımının qarşısını almaq üçün kiçik mühərrikli avtomobillərə də müəyyən vergi və gömrük güzəştləri tətbiq edilərdi”.

İqtisadçı sözlərinə davam edərək bildirib ki, yəni, 1500 kub sm-ə qədər mühərriki olan avtomobillərin idxalı üçün müəyyən güzəştlər tətbiq edilə bilər: ”Eyni zamanda, məlum olduğu kimi bizdə 3 ilə qədər hibrid avtomobillər gömrük rüsumundan tam şəkildə azad olunub. Həmin müddətin 5 illədək uzadılması, həmçinin bunun digər daxili yanacaqlı mühərriklərə də tətbiqi qiymət artımının qarşısını almaqda təsirli ola bilər. Lakin bu qərar az motor gücü olan avtomobillərə aid edilməlidir ki, yeni avtomobillərin idxalına, avtomobil parkının yenilənməsinə müsbət təsir göstərsin və əhali üçün yeni avtomobillərin əlçatanlığını təmin etsin”.

***Ləman Əlizadə***

# Antibiotiklərdən istifadəni məhdudlaşdırın!




Antibiotiklərin istifadəsini müəyyən qədər məhdudlaşdırmağımız lazımdır. SİA xəbər verir ki, bunu TƏBİB-in Yoluxucu xəstəliklər və infeksion nəzarətin təşkili şöbəsinin müdiri Nəzrin Mustafayeva deyib. O, infeksion nəzarət sistemində antibiotiklərin vurulması barədə danışarkən qeyd edib ki, antibiotiklər müalicədə çox böyük əhəmiyyət kəsb etsə də, günümüzdə onlardan çox geniş və sui-istifadə hallarına rast gəlinir:

“Son 30 ildə yeni antibiotik qrupları kəşf olunmayıb. Bununla yanaşı isə bakteriyaların, infeksiyaların davamlılığı və çeşidliliyi günü-gündən artır. Bu, bir qüsurlu dövran şəklindədir. Biz antibiotiklərdən istifadə etdikcə infeksiyalar da buna qarşı öz qoruma mexanizmlərini istifadə edir və davamlılıq qazanır. Nəticədə müalicə zamanı həmin antibiotiklərlə yaxşı nəticə ala bilmirik və məcburi şəkildə daha yüksək spektrli antibiotiklərdən istifadə edirik. Bununla da bütün antbiotik rezervlərimiz tükənmiş olur. Bu, bütün dünyada belədir. Hazırda dünya antimikrob rezidentliklə mübarizə aparır.

Biz nə qədər az infeksiyaya yoluxma halları müşahidə ediriksə, bir o qədər də antibiotiklərdən istifadənin qarşısını almış oluruq. Bununla eyni zamanda xəstələri maliyyə xərclərinin çoxluğundan və antibiotikdən çox istifadənin orqanizmə zərərləri təsirlərindən qorumuş olur”.

# Kirayə evə baxmaq pullu oldu?

***“Son zamanlar Bakı şəhəri və ətraf qəsəbələrdə insanların daşınmaz əmlak alqı-satqısı ilə məşğul olan ofislərə və orada çalışan realtorlara qarşı narazılıqları hiss olunur. Belə ki, bəzi işbazlar sosial şəbəkələrdə və elan saytlarında xüsusi şişirdilmiş elanlar qoyaraq həmin evi və yaxud obyekti realda olduğundan daha çox tərif etməklə paylaşırlar. Bunu görən alıcı və kirayə axtaran şəxslər isə həmin evə baxmaq məqsədi ilə həmin nömrə ilə əlaqə saxlayırlar. Elanı qoyan şəxs isə onlara görüş üçün yer təyin edir və onlar həmin evlərə baxdıqdan sonra ev müştərinin xoşuna gəlmədiyi təqdirdə müştəridən əvvəlcədən danışılmamış hər göstərilmiş ev üçün 10 -20 manat xidmət haqqı tələb edirlər. Bu da haqlı olaraq müştərinin narazılığına səbəb olur və vasitəçi ilə müştəri arasında mübahisəli bir vəziyyət yaranır”. Bu sözləri SİA-ya açıqlamasında danışmaz əmlak üzrə ekspert Anar Nəsirov deyib.***



## ƏMLAK EKSPERTİ AÇIQLADI



Onun sözlərinə görə, bu kimi halların kəskin artması qanuni və düzgün işini aparan əmlak firmalarına da təsir edir: “Belə ki, bir kərə aldadılmış müştəri elə düşünür ki, bütün əmlak bazarında fəaliyyət göstərən realtorlar belədir. Haqlı olaraq insanlarda alqı satqı firmalarına olan inamı azalır. Düzdür, mən inanmıram ki, qanuni fəaliyyət göstərən firmalar belə hallara yol versinlər. Amma buna baxmayaraq insanlarda əmlak firmalarına olan inamı azaldırlar”.

Anar Nəsirov sözlərinə belə davam edib: “Qanunla alqı-satqı firmalarına müraciət edənlər əmlak ofislərinə aldıqları əmlakı, və yaxud kirayə götürdükləri əmlakın qarşılığında onlara danışılmış və razılaşdırılmış xidmət haqqını ödəməlidirlər. Ancaq bu o halda baş verir ki, müştəriyə göstərdiyi əmlak onun xoşuna gəlsin və həmin müştəri o əmlakı alsın, yaxud kirayə götürsün. Müştəri evə baxdı, o ev onun xoşuna gəlmədi, ancaq vasitəçi ondan xidmət haqqı istəsin?! Bu qayda düzgün deyil və alqı satqı şirkətlərinin adına ləkə gətirən bir əməldir. Onda belə çıxır ki, internetə 5 şişirdilmiş elan qoy, o elanları gündə 10 nəfər müştəriyə göstər, hər müştəridən ən azı 10 azn pul alsan, bu hər gün 100 azn edir. Bu halda həmin evin kirayə verilməsində heç vasitəçinin marağı olmaz. Çünki, biri var müştəriyə evi verib, iş bitdikdən sonra bəlli bir faizini alsın, biri də var, hər gün həmin evdən 50-100 azn pul qazansın. Təbii ki, onun marağı ikinci seçimdən yanadır ki, o hər gün yeni-yeni müştərilər tapıb, evi göstərib pul yığsın. Onda onun nəyinə lazım ki o, evi müştəriyə versin hazır gündəlik ondan da çox qazandığı halda.

Mən bildiyim qədərilə realtorlar evin satışı və kirayəsi baş tutduqdan sonra öz xidmət haqlarını götürürlər. Ancaq evə baxdın deyə müştəridən pul tələb edən şəxslər ya realtor işinin qaydalarından xəbəri yoxdur, ya da onun məqsədi hər gün 5-10 evə müştəri aparıb cibini doldurmaqdır. Mən hesab etmirəm ki, o adamın işi realtorluq olsun. Mənim fikrimcə, o, bu işi özünə peşə edib hər gün 50-100 AZN qazansın və cibinə qoysun. Elə iş üslubu seçən adamın marağı olmaz ki göstərdiyi evi götürsünlər. Çünki götürsələr, sabah pul almağa yeri olmaz deyə düşünürəm.

Bilirsiniz, bir mütəxəssis kimi deyə bilərəm ki, belə işbazlar son zamanlar çoxalıb və daşınmaz əmlak firmalarının adını biyabr etməkdə davam edir. İnternet nə qədər inkişaf etsə də, belə işbazlar yeni -yeni fırıldaqçılıq metodlar tapırlar. Bunlardan biri də, yaxşı şəkilləri olan evi ucuz qiymətə həm satışını, həm kirayəsini elan saytlarına qoyurlar. Bundan sonra onlara zəng etmiş müştərilərdən əmlaka baxış keçirməmiş pul istəyirlər. Əgər müştəri ona inanıb kart hesabına pul atarsa, onda həmin müştərinin telefonunu əngəlləyib, onun zənglərinə cavab vermirlər. Belə atalar sözü var ki, “Ova gedən ovlanar”. Ucuz ev istəyən əlində olan 100-200 manatdan da olur. Bəzən də, bu summa daha artıq olur. Bu baxımdan gərək əmlak alarkən, və yaxud kirayə götürərkən insanlar son dərəcə diqqətli olsunlar ki, belə hallar onların başına gəlməsin.

Əmlakı göstərib, insanlarda əmlaka baxdın deyə pul tələb edənlərə, deyə bilərəm ki, o adamların kim olduğunu bilməsəm də, bilirəm ki, onlar realtor peşəsinə ləkə gətirən, arada gəzən və heç bir ofisdə çalışmayan işbazlardır. Çünki əsl realtorlar əmlakı göstərməmişdən öncə öz xidmət haqqını razılaşar və yaxud əmlaka baxdın götürmədinsə, pul ödəməlisən deyə pul tələb etməz. Belə hərəkətləri edənlər realtor peşəsindən xəbəri olmayan işbazlardır. Mənim fikrimcə, əslində, daşınmaz əmlak bazarında realtorlara xüsusi bir nəzarət mexanizmi hazırlanmalıdır. Çünki, indi bu bazarda qanuni fəaliyyət göstərən firmalardan daha çox qanunsuz fəaliyyət göstərən işbazlar fəaliyyət göstərir. Belə baxanda, normal bir firmada normal fəaliyyət göstərən bir realtor küçədə heç bir sənədi, sübutu olmayan fərdi fəaliyyət göstərən arasında heç bir fərq yoxdur. Ancaq buna dövlət xüsusi nəzarət mexanizmi hazırlasa, bu kimi halların da qarşısını almaq olar. Xarici ölkələrdə olduğu kimi əgər sənin xüsusi icazən varsa, daşınmaz əmlakın alqı-satqısı ilə məşğul ola bilərsən, yoxdursa, ola bilməzsən. Belə olan halda, həm bu böyük bazara nəzarət olmuş olar, həm dövlət büdcəsinə verilmiş vergilər arta bilər, həm də qanunsuz fəaliyyətlə məşğul olan vasitəçilər aradan çıxarılar. Necə deyərlər, işi iş bilən peşəkarlarla etmək olar, onda həm onlar yaxşı qazanar, həm də dövlətə daha çox vergi verər”.

***Ayşən Vəli***

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**